UNİKAL

№21 (2251) 6 iyun 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# Ali məktəblərə qəbul imtahanları ilə bağlı müəmmalar böyüyür



Səh.8

# Teymur Musayevin dişsizliyi, yoxsa...

*Daha bir həkim əməliyyat zamanı çəkdiyi videonu izləyicilərinə nümayiş etdirib. Belə ki, bu dəfə tanınmış Mammoloq-Radioloq Günel Qəmbərova bu addımı atıb. Məlhəm Beynəlxalq Hospitalında pasiyentin bədəninin videosunu yayımlamaqdan çəkinməyən G.Qəmbərovanın proses zamanı bayağı davranışı da birmənalı qarşılanmayıb. Qeyd edək ki, bir müddət əvvəl Səhiyyə Nazirliyi (SN) Analitik Ekspertiza Mərkəzi əməliyyat zamanı yayım açan həkimlərə xəbərdarlıq edib: "Əməliyyat zamanı çəkiliş yalnız elmi-tədris məqsədi ilə tam sanitar-gigiyenik qaydalara riayət edilməklə, cərrahiyyə otaqlarında xüsusi tələblərə uyğun (sterillik) quraşdırılan texniki avadanlıqlar vasitəsi ilə həyata keçirilə bilər. Bu qaydalara əməl etməyərək, digər avadanlıqlarla çəkilişlərin aparılması gigiyenik qaydaları pozur və infeksiyanın yayılması üçün münbit şərait yaradır. Yuxarıda qeyd olunan fəaliyyət, "Reklam haqqında" Qanunun 29.1-ci maddəsinə...*

Səh.7

# "Əmək Məcəlləsində böyük dəyişikliklər olunmalıdır"



*İqtisadçı Eldəniz Əmirov "Unikal"a müsahibə verib. O, regionlarda kommunal ödənişlərin azaldılmasının hansı üstünlüklərinin ola biləcəyindən, rayonlarda kredit faizlərinin azaldılması üçün görüləcək işlərdən və Azərbaycanda saatlıq əməkhaqqı sisteminin tətbiq olunmasının vətəndaşlar üçün hansı...*

Səh.4

# "Unikal" 15 illik yubileyini qeyd edir

*"Unikal" qəzeti və "Unikal.az" xəbər portalının fəaliyyətə başlamasının 15 ili tamam olur. İlk dəfə oxucularla görüşə 2010-cu il iyunun 6-da gələn "Unikal" qəzeti hazırda həftədə bir dəfə dərc olunur. Qəzet Medianın İnkişafı Agentliyindən (MEDİA) maliyyələşir və layihə icra edir. Unikal.az Xəbər Portalı uzun...*

Səh.3

# Tolerantlığın Azərbaycan modeli dünyaya örnəkdir!



*Dünyada diskriminasiya, milli irqi və dini ayrıseçkilik geniş vüsət alsa da, Azərbaycan öz multikultral dəyərlərini qoruyaraq yaşatmaqda davam edir. Tarix boyu ölkəmizdə yaşayan azsaylı xalqlara, onların dini dəyərlərinə, adətənənələrinə hörmətlə yanaşılıb. Digər dövlətlərdən fərqli olaraq ölkəmizdə...*

Səh.11

21_27 IYUl-QARA.qxd 6/5/2025 9:54 PM Page 2



# "Sən mən ola bilməzsən, özünü çox yorma" - Aygün Kazımova



***Xalq artisti Aygün Kazımova çoxdan gözlənilən səs-küylü işini sevənlərinin ixtiyarına verib.***

Pop kraliça "Abrakadabra" adlı mahnısını və ona çəkdirdiyi klipini təqdim edib. Ölkənin əsas ulduzu bu layihəsi üçün də qardaş ölkə Türkiyəyə üz tutub. Kazımova "Abrakadabra" klipini də son mahnılarına ekran həyatı verən Selim Akara həvalə edib.

Mahnının musiqisi Kazım Can, sözləri Orxan Qarabasmaya (OGB) məxsusdur.

Rəngarəng, cəlbedici və vizual baxımdan olduqca zəngin olan ekran işində Aygün Kazımova 6 parlaq və diqqətçəkən obrazda görünüb. Bu obrazlar üzərində türkiyəli məşhurlar Ajda Pekkan, Hadise, Bülent Ersoyla çalışan komanda - Burcu Sedef, Erdal Güvenç, Berker Kuşku işləyib. Obrazdan-obraza girən ölkənin əsas ulduzu - hindli, yapon qadın və zebra tərzi ilə diqqət çəkib. Aygün Kazımovanı ekran işində Türkiyənin peşəkar rəqqas qrupu müşayiət edib. Layihənin rəhbəri Rüfət İsmayıldır.

# "Həmin adamı gətizdirib evində Mətanətdən..." - Manaf Ağayev



***"Mətanət hegemon idi, sözünü deyirdi. İndiyənə kimi mən var idim, görək bundan sonra necə edəcək".***

Bu sözləri müğənni Manaf Ağayev "Tarixin bir günü" verilişində deyib. Sənətçi həmkarı Mətanət Əsədova ilə küsülü olduğunu söyləyib:

"Onun haqqında çox danışmayacağam. Zamanı gələndə hər şey bilinəcək. Ona sual verirsən ki, 3 müğənni, qayıdır başqa müğənni yoxdur? Məndən ötrü ağlaya-ağlaya efirə gələn adam, nə etdi. Mən də onun üçün ölümə, söhbətə getmişəm. Bir efirdə söhbət olmuşdu, onlar hara kimi getdi. Həmin adamı gətizdirib evində Mətanətdən üzr istətdirdim. Amma dəyməzmiş".

Manaf Tarix Əliyevin "Ad günündə Mətanətə söz verməməyin aranızdakı küsülülüyə səbəb olub" sözlərinə belə cavab verib: "Düzdür. Hamıya sözü özüm verirdim. Nazpəri, Niyaməddin Musayev... Dedim ki, dostumsan, oxuma, otur. Adamdan xahiş edərlər ki, dur oxu. Nədir, oxumaq üçün ölürsünüz". (Axşam.az)

# Aqşin Fateh: "Bir ilə 100 min manat xərcləyirəm"



***Meyxanaçı Aqşin Fateh bir ilə sənəti üçün xərclədiyi məbləğdən danışıb.***

Bu barədə o, "Rəngarəng"də açıqlama verib.

Aqşin deyib ki, ilə 100 min manat xərcləyir: "Bu reytinqi 15-20 ildə qazanmışıq. Hər bir ildə kliplərə, mahnılara, studiyaya, aranjimana, reklama təxminən 100 min manat xərcləyirəm.

Bir klipin minumum xərci 3-5 min arasında olur. Bir mahnı 10 minə olur, hesablasaq ilə 7-8 mahnı çıxardıram". (Bizim.Media)

# "Qeyrəti olan kişi bunu götürməz"



***Müğənni Ofeliya Şabanova yenidən qalmaqallı açıqlamalar verib.***

Milli.Az xəbər verir ki, o, bəzi həmkarlarını "ağ yuyub, qara sərib".

Sənətçi özünü apara bilməyən qadın ifaçılara sərt sözlərlə səslənib: "Adını səhnə adamı qoyub, burada yarıçılpaq hoppanıb düşməyi hansı kişi qəbul edər? Müğənni kişinin birinin üzünə gülsün, o birinin qoluna girsin. Qeyrəti olan kişi belə şeyi götürməz axı... Bu, mənim fikrimdir. Əxlaqı olan qadın o hərəkəti etməz, özünə söz gətirməz.

Deyəcəklər ki, Ofeliya yenə danışmağa başladı. Vallah düzünü deyirəm. Özümü tərifləmirəm. Mənim həyat yoldaşım da qısqancdır, amma bilir xanımı səhnədə nə edəcək, toyda necə davranacaq".

# Şəhriyardan Oksana ilə bağlı suala reaksiya



***Aparıcı Şəhriyar Əbilov keçmiş həyat yoldaşı Oksana Rəsulova ilə bağlı sualları cavabsız qoyub.***

"Xəbərin var?" verilişində qonaq olan Şəhriyara aparıcı isa şükürov Oksana ilə bağlı sual ünvanlayıb.

Əbilov "Bu mövzunu heç vaxt qaldırmıram. Oksana mənim uşağımın anasıdır. Övladımıza bu hissi yaşadırıq. Daxili mətbəxdir. Əsas odur ki, Osman ikimizi də çox istəyir" deyə, cavab verib.

Qeyd edək ki, Oksana və Şəhriyar ailəli olub və ayrılıb. Onların Osman adlı bir övladı var.

# Röyanın keçmiş ərindən çağırış: "Bizi siz BARIŞDIRIN"



***Xalq artisti Röya Ayxanın keçmiş həyat yoldaşı Anar Cəlilov yenidən açıqlaması ilə diqqət çəkib.***

"Tik-Tok" hesabında canlı yayım açan Anar müğənniyə barışıq əli uzadıb. Belə ki, o, izləyicilərin keçmiş cütülüyün "barışıb, yenidən bir arada olun", çağırışına maraqlı cavab verib:

"Məncə gecdir. Hər şey gecdir. Bəlkə, o, istəmir, ya mən istəmirəm. Barışın deyirsiniz. Yenə deyirəm, biz dava etməmişik. O sözü mənə yazmayın ki, barışın. Gedin, siz barışdırın".

21_27 IYUl-QARA.qxd 6/5/2025 9:54 PM Page 3





## Azərbaycanda süni intellekt standartları qəbul edildi

***Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) süni intellekt sahəsində yeni dövlət standartları qəbul edib.***

“Unikal” İnstituta istinadən xəbər verir ki, bunlar, AZS ISO/IEC 23894:2025 “İnformasiya texnologiyaları - Süni intellekt - Risklərin idarə edilməsi üzrə təlimat”, AZS ISO/IEC 23053:2025 “Maşın öyrənməsindən istifadə edən süni intellekt sistemləri üçün çərçivə sənədi”, AZS ISO/IEC 24029-2 2025 “Süni intellekt - Neyron şəbəkələrinin dayanıqlılığının qiymətləndirilməsi” dövlət standartlarıdır.

Sözügedən dövlət standartları Süni İntellekt (Sİ) sistemlərinin etimadı doğrultma mövzularını, o cümlədən bu sistemlərin əsas hesablama xüsusiyyətlərini, onlarda istifadə olunan vacib alqoritmlər və yanaşmaları müəyyən edir.

Yeni dövlət standartlarının tətbiqində məqsəd Sİ sistemlərinin müxtəlif platformalarda və sahələrdə düzgün işləməsi üçün ümumi qaydalar və təlimatların yaradılmasını, həmçinin qarşılıqlı şəkildə işləməsini təmin etməkdir.

Yeni dövlət standartları “İnformasiya-kommunikasiya texnologiyaları” standartlaşdırma üzrə Texniki Komitədə (AZSTAND/TK 05) müzakirəyə çıxarılıb və İnstitut onları təsdiqləyərək Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edib.

Yeni dövlət standartları ölkə Prezidentinin 19 mart 2025-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “2025-2028-ci illər üçün süni intellekt strategiyası”nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.1.5-ci yarımbəndinin icrası məqsədilə qəbul edilib.

## AHİK-in yeni nizamnaməsi hazırlanır

***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) Nizamnaməsinə dəyişiklik ediləcək.***

”Unikal” xəbər verir ki, bununla bağlı qurumun bu gün keçirilən tədbirində məlumat verilib.

Bildirilib ki, hazırda yeni nizamnamənin layihəsi üzərində iş gedir. Eyni zamanda ”Həmkarlar ittifaqları haqqında” qanuna da dəyişiklik ediləcək və bununla bağlı hazırlanmış layihə Milli Məclisə təqdim olunacaq.

# Ali məktəblərə qəbul imtahanları ilə bağlı müəmmalar böyüyür

## Məleykə Abbaszadə yenidən ittiham hədəfində - Dövlət İmtahan Mərkəzi niyə cəmiyyətin “nişangahındadır”?

***Azərbaycanda ali məktəblərə builki qəbul imtahanları ətrafında ciddi narazılıqlar yaranıb. Üstəlik, narazılıqların başlıca tərəfi nə abituriyentlərdir, nə də onların valideynləri... Hazırda bu mövzuda daha çox müəllimlərin etiraz səsləri eşidilməkdədir.***

Ələlxüsus da sualların çətinliyi, daha çox magistratura səviyyəsində tərtib edilməsi, təqdim olunan cavab variantlarında ikibaşlılıq və s. kimi məqamlar günlərdir ictimaiyyət arasında əsas müzakirə mövzularından biridir.

Təhsil eksperti Kamran Əsədov da bildirib ki, son üç ildə - 2023, 2024 və 2025-ci illərdə keçirilən imtahanlardan sonra eyni məzmunlu şikayətlər sosial şəbəkələrdə, ictimai müzakirələrdə və mütəxəssis rəylərində yer almaqdadır. Bu isə onu göstərir ki, məsələ təkcə hansısa bir sualın çətinliyi ilə bağlı deyil, ümumilikdə Dövlət İmtahan Mərkəzinin (DİM) tarix fənnini qiymətləndirmə yanaşmasında konseptual və metodoloji çatışmazlıqlar mövcuddur.



Düzdür, Məleykə Abbaszadənin rəhbərlik etdiyi DİM-də isə ictimai narazılıqlardan fərqli düşünürlər. Qurumdan bildirilir ki, Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarının məzmunu müəyyən edilərkən istinad etdiyi metodiki çərçivə çox aydın və birmənalıdır - bunlar hazırda ölkəmizdə qüvvədə olan təhsil proqramı, dərsliklər və onların əsasında hazırlanmış qəbul proqramlarıdır. DİM-dən o da qeyd olunur ki, imtahanların məzmunu hazırlanarkən qeyd olunanlar nəzərə alınır.

Lakin istər abituriyentlərin, istərsə də müəllimlərin narazılıqları durumun xeyli fərqli olduğuna dair qənaət formalaşdırır.

Məsələn, tarix müəllimi Kamran Şeyxzamanlı builki qəbul imtahanında sualların bilərəkdən çətinləşdirildiyinə dair iddia irəli sürüb: “Hər qəbul imtahanında bir fənn qurban edilir. Keçən il bu, ədəbiyyat idisə, bu il tarix oldu. Qəsdən tarix fənnini vurma əmri verilmişdi. Onsuz bu fənnə ölkədə hörmət qoyulmur, dərslikləri bərbad haldadır. Olimpiadası ilə uşaqları təhqir edirlər. Əlimizdə bir DİM-in imtahanı və standartları qalmışdı, onu da bu gün dəfn etdilər. Orta və zəif uşaqlar düşünülməmişdi. Suallar müəllimlərin işə qəbulu səviyyəsində idi. Hər uşaq yaza bilməzdi. Çox xırdaçı, çürükçü söhbətlər vardı. İnsafı olan adam da belə imtahan təşkil etməzdi”.

Abituriyentlər də tarix fənninə dair sualların mürəkkəbləşdirilməsindən gileylənirlər. Bəzi suallar isə ümumiyyətlə mübahisə predmetinə çevrilib. Məsələn, Məhəmməd Tahir Vahidin Səfəvilər dövründə vəzir olması ilə bağlı suala etiraz edənlərin hər birinin iradı var. Burada 17-ci əsrin sonları, 18-ci əsrin əvvəllərində yaşamış saray tarixçisinin II Şah Abbasın vəziri olması düzgün cavab kimi fərqləndirilib. Halbuki Məhəmməd Tahir Vahid Şah Süleymanın vəziri olub.

Mehdiabad qəsəbəsində tarix müəllimi kimi fəaliyyət göstərən Hikmət Quluzadə isə sosial şəbəkələrdə Azərbaycan Cümhuriyyətinə aid sualda ciddi yanlışlıq olduğu qənaətindədir. O, iddia edir, əlində bütün texniki imkanları olan DİM-in 30 normal sual hazırlaya bilməməsi təəccüb doğurur. Başqa bir tarix müəllimi - Pərviz Beşirov isə bu il məhz tarix suallarının mürəkkəbləşdirildiyini, amma hər il ana dili və ədəbiyyatla bağlı eyni hal yaşandığını qeyd edib.

Hətta iş o yerə çatıb ki, çox sayda tarix müəllimi builki qəbul imtahanlarında qoyulan suallarla bağlı narazılıqlarını kəskin dilə gətiriblər:

Sahil Əzimov: “13 ildir bu sahədəyəm, amma builki qədər qəliz, şagirdlərə tarix fənnindən soyutma effekti yaradan suallar görməmişdim. Situasiya mətni də III ixtisas blokuna uyğun olaraq kifayət qədər xırdalıqlarla dolu bir mövzudan seçilmişdi. Bütün sınaqlarda 30 bal toplayan şagirdlər bu imtahanda 28 balı belə keçə bilmədi. Məqsəd nədir? Suallar həm uzun, həm də sistemli idi. Bir suala ayrılacaq vaxt bu tip tapşırıqları cavablandırmaq üçün kifayət etmirdi. Danışılacaq çox məsələ var... Ümid edirik ki, növbəti imtahanda vəziyyət bu qədər gərgin olmayacaq”.

Emil Agayev: “Dövlət İmtahan Mərkəzi özünü özəl kurslar kimi aparır...”

Zaur Qədirov: “Şagirdlərim ruhən çöküblər... Axı bunların haqqına girməklə nə əldə edirlər?! Qeyri-standart yanaşmaları 30 düz yazan şagirdim 26,5 yazıb... Deyir, müəllim çox əziyyət çəkdim, güclə yazdım... Bu, uşaqların əziyyətini düşünməmək, gələcəklərinə təsir etmək deyilmi?!”

Firdovsi Tahirov: “Sualları hazırlayanlar uşaqların həyəcanını və vaxtı nəzərə almayıblar. Elə sual var ki, onu yazmaq üçün 6-7 mövzünü bilməklə yanaşı əlaqələndirməyi də bacarmalıdır uşaq. Situasiyada ziddiyyətli məqam var idi, hələ səhv suallar bir yana...” və s. və i.a.

Təhsil eksperti Kamran Əsədovun fikrincə isə 2025-ci il mayın 25-də keçirilmiş bakalavriat səviyyəsinə qəbul imtahanında tarix fənni üzrə təqdim olunan test tapşırıqlarının yaratdığı narazılıq təhsildə uzun müddətdir davam edən struktur problemlərin daha da kəskin şəkildə üzə çıxmasına səbəb olub. “İmtahanın nəticələri və sosial mediada yayılan ictimai reaksiyalar göstərdi ki, suallar təkcə çətinlik səviyyəsinə görə deyil, eyni zamanda məntiqi quruluş, didaktik uyğunluq və müasir pedaqoji yanaşmalara cavab verməməsi baxımından da ciddi suallar doğurur. Bu vəziyyət, əslində, təhsilin qiymətləndirilməsi sisteminin özünün yenidən nəzərdən keçirilməsinə ehtiyac olduğunu bir daha təsdiqləyir” - ekspert vurğulayıb.

Ən acınacaqlısı isə odur ki, etirazçılar bütün bunlarda məqsədin abituriyentləri ikinci dəfə imtahan verməyə məcbur etmək olduğunu düşünür. Məsələ burasındadır ki, ikinci dəfə imtahanda iştirak üçün Azərbaycan reallığında o qədər də az sayılmayacaq məbləğ tələb edilir. Belə çıxır ki, kimlərdən ötrüsə övladlarımızın təhsili yox, rəsmi şəkildə müəyyənləşdirilmiş rüsumu ödəmək, beləcə hansısa quruma maddi gəlir gətirmək daha önəmlidir.

Əgər doğrudan da belədirsə, deməyə söz qalmır. Yüz kərə təəssüf, min kərə təəssüf!

P.S. Absurd orasındadır ki, müəllimlərin çox sayda və konkret olaraq ortaya qoyduqları iradlar qarşısında DİM ümumi danışaraq, mücərrəd və təyinatsız açıqlamalarla vəziyyətdən çıxmağa çalışır. Bu isə haqlı olaraq insanlarda növbəti qəbul imtahanları zamanı oxşar yanlışlıqların təkrarlanmayacağına dair qənaət formalaşdırır. Çünki yanlışı düzəltməyin ilk yolu səhvini qəbul və etiraf etməkdən keçir. Təcrübə göstərir ki, əks halda istənilən xəta gələcəkdə daha da kəskin formada təkrarlanır...

***Toğrul Əliyev***

# Ermənistanda böhran dərinləşir:

## Paşinyan indi də kilsə ilə mübarizəyə başlayıb

***Ermənistanda baş nazir Nikol Paşinyanla Erməni Apostol Kilsəsi arasında gərginlik son həftələrdə açıq qarşıdurmaya çevrilib.***

Paşinyan "Facebook" səhifəsində katolikosun ünvanına polemikaya səbəb olan fikirlər yazıb: "Məncə, bütün ermənilərin katolikosu şəksiz nüfuz sahibi, ədalətin dönməz müdafiəçisi, şəksiz həqiqət mənbəyi olmalıdır. Mən bütün ermənilərin katolikosunun həqiqəti boğan rolunda ola biləcəyinə inana bilmirəm, bütün ermənilərin katolikosunun ağzından həqiqətdən başqa bir şey çıxa biləcəyinə inana bilmirəm. Qoy II Karekin özü aydınlaşdırsın: o, subaylıq andını pozubmu və övladı varmı? Ondan həqiqəti eşitməyə haqqımız var", - baş nazir qeyd edib.

Politoloq Elxan Şahinoğlu fikirlərini bizimlə bölüşərkən deyib ki, Ermənistanın baş naziri Nikol Paşinyanın kilsəyə qarşı sərt ritorikasının səbəblərindən biri də Rusiya ilə bağlıdır. Onun fikrincə, Paşinyan Rusiyadakı dairələrin erməni kilsəsi ilə əlaqələri genişləndirməsindən və bu ittifaqın gələn il parlament seçkisində ona qarşı istifadə ediləcəyindən narahatdır: "Buna görə də Paşinyan bu ittifaqı gözdən salmaq kampaniyasına başlayıb. Paşinyan İkinci Qarabağ müharibəsindən sonra müxtəlif əngəlləri aşıb. Birinci dəfə ona qarşı silahlı qüvvələrin baş qərargah rəisi Onik Qasparyan qiyam qaldırmaq istədi. Qasparyan Paşinyana müraciət edərək, onun istefa verməsini tələb etdi. Qasparyanın arxasında da Rusiyadakı qüvvələr dayanırdı. Paşinyan Qasparyanı dərhal istefaya göndərməklə onu neytrallaşdırdı. Bundan sonra erməni kilsəsi Paşinyana qarşı Baqrat Qalstyan isimi keşişi irəli sürdü. O İrəvana yürüşə başladı, çadırlar qurdu, etiraz mitinqləri təşkil etməyə çalışdı. Ancaq keşiş erməni cəmiyyətindən dəstək almadığına görə o da Paşinyana məğlub oldu. Bu dəfə Paşinyan gələcək rəqibinin kim olacağını gözləmədən radikal müxalifətə və kilsəyə qarşı mübarizəni gücləndirib. Baş nazirin məqsədi aydındır. Parlament seçkiləri yaxınlaşdıqca Paşinyan erməni cəmiyyətinə seçim etməyi məsləhət görür: "Ya mənimlə yola davam edəcəksiniz və bu Azərbaycanla sülhü gətirəcək, ya da müharibə istəyən radikal müxalifəti və kilsəni dəstəkləyəcəksiniz, bu halda həm müharibə, həm də ərazi itkisi ilə üzləşəcəksiniz".



Siyasi şərhçi Aqşin Kərimov isə hesab edir ki, Ermənistanın baş naziri Nikol Paşinyanın erməniliyin episentri və ideya generatoru olan kilsəni hədəfə alması təkcə ölkədaxili siyasi rəqabətin nəticəsi deyil. Onun qənaətincə, bu hadisə Azərbaycanın Ermənistanın təhlükəsizlik, siyasi, hüquqi aparatını sürətli və məhsuldar bir şəkildə öz kriteriyalarına tabe etdirməyin motivlərini də əks etdirir: "Paşinyanın kilsə aparatını tənqid etməsi yeni hadisə olmasa da, son zamanlarda bu ritorikanı daha sərt bir üsluba söykəməsi maraq doğurur. Buna Azərbaycanın qurmaq istədiyi model üzərindən baxmağa ehtiyac var. Əsas detal budur: Azərbaycan İrəvan qazısının fəaliyyətini bərpa edən qərar verdikdən sonra Paşinyan kilsəyə qarşı leksikonunu kəskinləşdirdi, sürpriz və sensasion detallar açıqladı. Bu məsələ Azərbaycanın xarici siyasətdə tarixi dini rütbələrə istinad kontekstində yeni tendensiya yaradır. Konseptual olaraq din nöqteyi-nəzərindən məsələni belə qiymətləndirərdim: Azərbaycan dağıdıcı və regional pozuculuqla məşğul olan erməni kilsə hərəkatına qarşı həmrəyliyə, sülhə səsləyən İslam inancını ortaya qoyur. Başqa yandan Azərbaycan Ermənistanın kilsə hərəkatına qarşı özünün irəli sürdüyü iki məqsədi vahid bir portfeldə birləşdirir. Birincisi, Qərbi azərbaycanlıların qayıdışı üçün Ermənistan daxilində ictimai-siyasi hazırlıqlar lazımdır. İrəvan qazısının fəaliyyətinin bərpa edilməsi bu məqsədlə irəliyə doğru addımlara motivasiya verir. İkincisi, Nikol Paşinyanın kilsəyə qarşı hücumlarına Azərbaycan tərəfindən dəstəklənən mənalar yüklənməsi üfüqdə görünə bilər. Azərbaycan İrəvan qazısının fəaliyyətinin yenidən təşkili ilə Paşinyanın kilsə əleyhinə bəyanatlarını eyni məqsəddə birləşdirən siyasəti elan etməkdə maraqlı tərəf kimi çıxış edə bilər. Bu, Azərbaycanın Ermənistan qarşısındakı şərtlər seriyasında yumşaq gücü olmaqla yanaşı, Ermənistan daxilindəki formasiyanı dəyişdirmək metodlarının işləkliyi üçün yeni istiqamətlər yaradacaq".

Mövzuyla bağlı Bakıvaxtı.az-a açıqlama verən politoloq Züriyə Qarayeva bildirib ki, Paşinyanın "yeni Ermənistan" modeli ilə kilsənin ideoloji təsiri ziddiyyət təşkil edir. Məsələ təkcə dini nüfuz deyil - söhbət kilsənin tarixən formalaşmış siyasi çəkisindən və revanşist düşüncəni yaşadan əsas mərkəzlərdən biri olmasından gedir. Məhz bu səbəbdən Ermənistan daxilində baş verən bu qarşıdurma, regionda sülh və sabitlik axtarışında olan Azərbaycan üçün də diqqətəlayiqdir.

Politoloq qeyd edib ki, Paşinyanın 2018-ci ildə hakimiyyətə gəlməsindən sonra dövlətlə kilsə arasındakı münasibətlər kəskin şəkildə dəyişib: "Paşinyan bu müddətdə kilsənin dövlətə paralel nüfuz mərkəzinə çevrilməsindən narahat olduğunu gizlətməyib. Bu münasibətlərdə əsas qırılma nöqtələri bunlar olub:

"Hakimiyyət kilsənin imtiyazlı statusuna toxunmağa cəhd etdi - o cümlədən torpaq mülkiyyəti, iqtisadi resurslar və tarixi iddiaların yenidən baxılması gündəmə gətirildi. Kilsə siyasi müxalifətlə əlaqələrini möhkəmləndirərək, 44 günlük müharibədən sonra Paşinyana qarşı etiraz kampaniyalarını dəstəklədi. Ermənistandakı müxalifət zəif və parçalanmış olduğu üçün, kilsənin siyasi proseslərdə daha fəal rol alması faktiki olaraq onu ən təsirli müxalif gücə çevirdi. Tavuş vilayətində başlanan mitinqlər və keşiş Baqratın simasında kilsənin küçə hərəkatına qoşulması bu xəttin təkamülüdür".

***Seymur Əli***



## Ermənistanın Azərbaycana qəsdən ziyan vurması üzrə sənədlər məhkəmədə araşdırılır

***Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində Ermənistan Respublikası tərəfindən həyata keçirilmiş təcavüzkar müharibənin gedişində Azərbaycan Respublikasının ekologiyasına və iqtisadiyyatına qəsdən ziyan vurulması faktları üzrə sənədlərin tədqiqinə başlanılıb.***

Azərbaycan Respublikasının işğal altında olan əraziləri işğaldan azad edildikdən sonra həmin ərazilərə baxışlar keçirilib, baxış zamanı hər bir rayon və kənd üzrə vurulmuş ziyan müəyyən olunub.

Tədqiq edilən sənədlərlə Zəngilan, Cəbrayıl, Füzuli, Qubadlı, Ağdam, Xocavənd, Şuşa, Tərtər, Laçın, Kəlbəcər rayonlarında və həmin rayonların kəndlərində təbiətə və iqtisadiyyata vurulmuş zərərlər sadalanıb. Bu zərərlər sırasına həm ağacların məhv edilməsi, həm də faydalı qazıntı yataqlarının qanunsuz istismarı daxildir.

Nümayiş etdirilən fotolarla ağacların təbii şəkildə deyil, qəsdən məhv olunması sübut edilib. Məhkəmədə vaxtilə işğal altında olan rayonlarda faydalı qazıntı yataqlarının, o cümlədən xammal və filiz yataqlarının qanunsuz istismarına dair kosmosdan çəkilmiş görüntülər də nümayiş etdirilib.

Bildirilib ki, talan nəticəsində əldə edilmiş gəlir və ya digər maddi sərvətlər Ermənistan ordusu tərəfindən formalaşdırılmış silahlı dəstələrin, xarici ölkələrdən gətirilən muzdluların maliyyələşdirilməsinə, onların müxtəlif növ silah, geyim, ərzaq və digər zəruri ehtiyaclarının təmin olunmasına, cinayətkar birliklərə daxil olan silahlı birləşmələrin döyüş qabiliyyətinin artırılmasına yönəldilib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

## Azərbaycanda növbəti torpaq hərracları elan edildi

***İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (ƏMDX) iyulun 9-da növbəti dəfə torpaq hərracları keçirəcək.***

"Unikal" bu barədə quruma istinadən xəbər verir.

Məlumata görə, hərraclar ƏMDX-nın Ağdaş, Yevlax, Ucar, Göyçay, Tərtər, Ağstafa, Ağcabədi və Biləsuvar ərazi şöbələrində olacaq. Hərraclara müxtəlif bələdiyyə orqanlarına məxsus 13 torpaq sahəsi çıxarılacaq. Hərraclar barədə ətraflı məlumatı əmlak komitəsinin rəsmi saytından əldə etmək mümkündür.

# İlham Əliyev Azərbaycan xalqını təbrik etdi



***Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.***

"Unikal" xəbər verir ki, təbrikdə deyilir:

"Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzularımı yetirirəm. Dünya müsəlmanlarının mənəvi birlik və vəhdət rəmzi olan Qurban bayramı Uca Yaradanın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi insanları həmişə bərabərliyə, qardaşlığa və fədakarlığa dəvət edir.

Cəmiyyətimizdə humanizmi və xeyirxahlıq duyğularını daha da gücləndirən Qurban mərasimləri hər il Azərbaycanda yüksək əhval-ruhiyyə və təntənə ilə keçirilir. Bu günlərdə dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvar olduğumu bildirirəm ki, saf niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır.

Əziz bacı və qardaşlarım!

Mübarək Qurban günlərində bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram. Qurban bayramınız mübarək olsun!".

# Əli Əsədov Düşənbədə MDB Hökumət Başçıları Şurasının iclasında iştirak edib

***Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının iclası keçirilib.***




Nazirlər Kabinetinin mətbuat xidmətindən "Unikal" verilən xəbərə görə, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iclasda iştirak edib.

İclasda çıxış edən Əli Əsədov gündəlikdəki iqtisadi, hüquqi və humanitar sahələrə aid məsələlərlə yanaşı, MDB-nin fəaliyyəti ilə bağlı büdcə və kadr məsələlərinə də diqqət çəkdi.

Humanitar əməkdaşlığı MDB çərçivəsində qarşılıqlı fəaliyyətin əsas istiqamətlərindən biri kimi qiymətləndirən Baş nazir, könüllülük hərəkatının inkişafı və bu sahədə beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayıb. "Məlum olduğu kimi, ötən ilin dekabr ayında Bakıda MDB-yə üzv dövlətlərin Könüllülük Hərəkatları Forumu uğurla təşkil olunmuşdur. Forumda MDB ölkələrindən gənclər fəal iştirak etmiş, çoxsaylı panel sessiyaları və dəyirmi masalar keçirilmişdir," - deyə Ə. Əsədov əlavə edib.

İclas iştirakçılarının diqqəti, həmçinin 2025-ci ildə MDB çərçivəsində keçiriləcək mühüm mədəni və idman tədbirlərinə yönəldildi. Qeyd olundu ki, cari ilin 28 sentyabr - 8 oktyabr tarixlərində Gəncə və Azərbaycanın digər şəhərlərində MDB ölkələrinin III idman oyunları keçiriləcək. Bu oyunlar 23 idman növünü əhatə edəcək. "Artıq oyunların rəsmi internet saytı istifadəyə verilib və orada tədbirin hazırlıq prosesi, yarışların cədvəli və idman məkanları ilə bağlı məlumatlarla tanış olmaq mümkündür", - deyə Baş nazir bildirib.

Ə.Əsədov, həmçinin, Laçın şəhərinin "2025-ci il üçün MDB-nin Mədəniyyət Paytaxtı" elan edilməsi ilə əlaqədar Tədbirlər Planının təsdiqləndiyini qeyd edib. Həmin plana əsasən, konfransların, konsertlərin, sərgilərin, teatr və kino festivallarının keçirilməsi, həmçinin müsabiqələrin və media turların təşkili nəzərdə tutulur.

Faşizm üzərində Qələbənin 80 illiyi münasibətilə həyata keçirilən tədbirlərdən danışan baş nazir vurğulayıb ki, Azərbaycan xalqı bu Qələbəyə həm cəbhədə, həm də arxa cəbhədə əhəmiyyətli töhfə verib.

Ə. Əsədov, həmçinin, Azərbaycanın MDB-yə üzv dövlətlərlə iqtisadi- ticarət əlaqələrinin daha da genişləndirilməsinə böyük önəm verdiyini xatırladıb. "Bu baxımdan, Azərbaycan ilə MDB ölkələri arasında ticarət dövriyyəsinin müsbət dinamikasının qorunub saxlanılması sevindirici haldır. Belə ki, 2024-cü ildə ticarət dövriyyəsi 7% artmışdır. Cari ilin ilk 4 ayının yekunlarına əsasən isə 43% artım müşahidə olunur," - deyə o bildirib.

İclas iştirakçılarını Azərbaycanın nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində atdığı addımlar barədə məlumatlandıran Baş nazir qeyd edib ki, xüsusilə gömrük və tranzit əməliyyatlarının rəqəmsallaşdırılmasına xüsusi diqqət yetirilir. Azərbaycan Avrasiyanın mühüm nəqliyyat-logistika mərkəzlərindən biri kimi "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin inkişafında əhəmiyyətli rol oynayır.

Azərbaycanda bərpaolunan enerji mənbələri sahəsində uğurla həyata keçirilən irimiqyaslı layihələr barədə danışan Ə. Əsədov qeyd edib ki, günəş və külək elektrik stansiyalarına dair imzalanmış müqavilələr 2030-cu ilə qədər ölkəyə əlavə 6 giqavat enerji təmin edəcək. "Eyni zamanda, Azərbaycan Respublikasının Şərqi Zəngəzur və Qarabağ bölgələrində müxtəlif gücə malik su elektrik stansiyalarının tikintisi və istismara verilməsi hesabına hidroenerji potensialı daxili investisiyalar hesabına artırılır. Görülən işlər nəticəsində növbəti beş il ərzində bərpaolunan enerji mənbələrindən enerji istehsalı potensialının ikiqat artırılması planlaşdırılır," - deyə Baş nazir əlavə edib.

Yekun olaraq, Azərbaycan Respublikasının Baş naziri MDB çərçivəsində hökumətlərarası səviyyədə six əməkdaşlığın davam edəcəyinə ümidvar olduğunu ifadə edib. Baş nazir, bu əməkdaşlığın üzv dövlətlər arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişlənməsinə müsbət təsir göstərdiyini vurğulayıb.

İclasın yekununda MDB-yə üzv dövlətlərin hökumət başçıları tərəfindən bir sıra sənədlər imzalanıb.

# DİN Qurban bayramı ilə əlaqədar müraciət etdi



***DİN Qurban bayramı ilə əlaqədar müraciət edib. "Unikal" xəbər verir ki, müraciətdə deyilir:***

"Əziz hərəkət iştirakçıları!

Qurban bayramı və tətil günləri ilə əlaqədar olaraq paytaxtdan bölgələrə səfər edən vətəndaşların sayında artım gözlənilir. Bu səbəbdən, həm şəhərdaxili, həm də respublika yollarında nəqliyyat sıxlığının yaranması və qəza riskinin artması ehtimal olunur.

Yol hərəkətində təhlükəsizliyin təmin olunması məqsədilə sizi aşağıdakı vacib qaydalara əməl etməyə çağırırıq:

Avtomobildə hərəkətdə olarkən təhlükəsizlik kəmərindən istifadə edin;

Nəqliyyat vasitəsinin texniki sazlığını öncədən yoxlayın;

Mümkün olduqda səhər saatlarında yola çıxın;

Nəqliyyat vasitəsi istehsalçısı tərəfindən müəyyən edilmiş saydan artıq uşaqlar da daxil olmaqla sərnişin daşımayın;

Sürət həddini aşmayın, ötmə manevrlərini yalnız qaydalara uyğun şəkildə həyata keçirin;

Sərxoş və ya yorğun vəziyyətdə sükan arxasına əyləşməyin;

Unutmayın, polis əməkdaşları bayram günlərində də respublika yollarında və şəhər ərazilərində fasiləsiz xidmət göstərir, sizin təhlükəsiz və rahat istirahətiniz üçün çalışırlar.

Siz də məsuliyyətli davranaraq özünüzü və yaxınlarınızı qoruya, təhlükəsizliyin təmininə töhfə verə bilərsiniz.

Qoy bu mübarək bayram hər kəsə ruzi, bərəkət və sevinc gətirsin! Qurbanlarınız, dualarınız qəbul olsun. Bayramınız mübarək!".

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Dövlət büdcəsinin gəlirləri 17 mlrd. manatı ötüb

***Cari ilin yanvar-may ayları üzrə dövlət büdcəsinin gəlirləri 17 138,0 milyon manat təşkil edib ki, bu da 5 aylıq proqnozdan 639,7 milyon manat və ya 3,9 faiz çoxdur.***



Bu barədə "Unikal"a Maliyyə Nazirliyindən bildirilib. Məlumata görə, gəlirlərdə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 7 843,3 milyon manat təşkil edərək proqnozdan 423 milyon manat və ya 5,7 faiz, Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 2 589,5 milyon manat təşkil edərək proqnozdan 2,5 milyon manat və ya 0,1 faiz, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 18 milyon manat təşkil edərək proqnozdan 3,7 milyon manat və ya 25,9 faiz, Dövlət Neft Fondundan transfert isə 6 033,8 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz və sair daxilolmalar isə 398,4 milyon manat təşkil edərək proqnozdan 297,2 milyon manat və ya 3,9 dəfə çox icra edilib. Dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 255 milyon manat təşkil edərək proqnoza qarşı 86,7 milyon manat və ya 25,4 faiz az icra edilib.

2025-ci ilin 5 ayı üzrə dövlət büdcəsinin xərcləri 14 195 milyon manat proqnoza qarşı 13 691,8 milyon manat, yəni 96,5 faiz icra edilib.

# Prezident Samir Nuriyevi sədr təyin etdi

***BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb.***

”Unikal” xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncamla Təşkilat Komitəsi aşağıdakı tərkibdə formalaşıb:

Təşkilat Komitəsinin sədri

Samir Nuriyev - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri

Təşkilat Komitəsinin üzvləri:

Anar Quliyev - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının milli koordinatoru



Sahil Babayev - Azərbaycan Respublikasının maliyyə naziri

Ceyhun Bayramov - Azərbaycan Respublikasının xarici işlər naziri

Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Vilayət Eyvazov - Azərbaycan Respublikasının daxili işlər naziri

Fərəh Əliyeva - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri

Emin Əmrullayev - Azərbaycan Respublikasının elm və təhsil naziri

Hikmət Hacıyev - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri

Kəmaləddin Heydərov - Azərbaycan Respublikasının fövqəladə hallar naziri

Şahmar Mövsümov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Teymur Musayev - Azərbaycan Respublikasının səhiyyə naziri

Zeynal Nağdəliyev - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri

Rəşad Nəbiyev - Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

Arif Səmədov - Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin rəisi

Şahin Bağırov - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

Vüqar Əhmədov - “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri

Aygün Əliyeva - Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru

Eldar Əzizov - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Səbinə Hacıyeva - Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi

Vüsal Hüseynov - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi

Elbay Qasımzadə - Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri

Elçin Quliyev - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi

Vüqar Qurbanov - Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru

Ceyran Mahmudova - Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru

Saleh Məmmədov - Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri

Gülçöhrə Məmmədova - Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru

Zaur Mikayılov - Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri

İlqar Musayev - Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi

Əli Nağıyev - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

Fuad Nağıyev - Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Balababa Rzayev - “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri

Gülşən Rzayeva - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Aparatı rəhbərinin müavini

Umayra Tağıyeva - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Səadət Yusifova - Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini.

Qeyd edilib ki, Təşkilat Komitəsi BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının təşkili və keçirilməsi ilə bağlı Tədbirlər Planı hazırlayıb həyata keçirməli, əməliyyat şirkətinin yaradılması ilə əlaqədar tədbirlər görməlidir.

Nazirlər Kabineti bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulan Tədbirlər Planının icrası ilə bağlı maliyyələşdirməni təmin edəcək və digər zəruri məsələlərin həlli üçün tədbirlər görəcək.

# Dövlət əleyhinə çağırışlara görə ittiham olunanlara hökm oxundu

***Dövlət əleyhinə çağırışlarda təqsirləndirilərək saxlanılan Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Qaradağ rayon şöbəsinin sədri Zaur Əsgərov və Binəqədi şöbəsinin üzvü Gündüz Mirzəyevin cinayət işi üzrə məhkəmənin sonuncu baxış iclası keçirilib.***

”Unikal”ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə keçirilən iclasda hökm oxunaraq Z.Əsgərov 5 il 6 ay, G.Mirzəyev isə 5 il 7 ay 2 gün müddətinə azadlıqdan məhrum edilib.

Xatırladaq ki,ötən prosesdə prokuror Zaur Əskərov və Gündüz Mirzəyevin hər birinin 7 il azadlıqdan məhrum edilməsini məhkəməyə təklif etmişdi.

Qeyd edək ki, Zaur Əsgərov və Gündüz Mirzəyev martın 7-də saxlanılıblar. Onlara Cinayət Məcəlləsinin 281.2-ci (dövlət əleyhinə açıq çağırışlar, təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə) maddəsiylə ittiham irəli sürülüb. Cinayət işinin istintaqı Baş Prokurorluğun İstintaq İdarəsində aparılıb.

***Seymur Əli***

# "Unikal" 15 illik yubileyini qeyd edir

***”Unikal” qəzeti və ”Unikal.az” xəbər portalının fəaliyyətə başlamasının 15 ili tamam olur.***

İlk dəfə oxucularla görüşə 2010-cu il iyunun 6-da gələn ”Unikal” qəzeti hazırda həftədə bir dəfə dərc olunur. Qəzet Medianın İnkişafı Agentliyindən (MEDİA) maliyyələşir və layihə icra edir.

Unikal.az Xəbər Portalı uzun illərdir aktiv xəbər yayımını həyata keçirir və fəaliyyətə başladığı gündən oxucuların qarşısına ölkədə və dünyada baş verən eksklüziv, dəqiq, operativ xəbərlərlə çıxır.

Hazırda saytın oxucuları müxtəlif sosial qrupları təmsil edən auditoriyadan ibarətdir. Sayt Azərbaycanda fəaliyyət göstərən ictimai-siyasi təşkilatlar, sosial qruplar, dövlət qurumları ilə əməkdaşlıq edir.

# Yeni hakimlər Ali Məhkəmədə and içdilər



***2025-cü il iyunun 6-da Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.***

”Unikal” xəbər verir ki, iclasda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci il 3 iyun tarixli Sərəncamı ilə bir sıra birinci instansiya məhkəmələrinin hakimi vəzifələrinə təyin olunan 38 hakimin andiçmə mərasimi olub.

Ali Məhkəmənin sədri İnam Kərimov yeni təyin olunmuş hakimləri təbrik edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Bildirilib ki, yeni nəsil hakim korpusunun çevik komplektləşdirilməsi məqsədilə hakimliyə namizədlərin seçim prosesi davamlı xarakter alıb. Ötən dövrdə 2500-dən çox hakimliyə namizəd imtahanlarda iştirak edib, müsabiqənin bütün mərhələlərini, eləcə də tədris kursunu və məhkəmələrdə stajkeçməni müvəffəqiyyətlə başa vurmuş 254 nəfər hakimliyə namizəd ölkə Prezidentinin Sərəncamı ilə müxtəlif birinci instansiya məhkəmələrinə hakim vəzifələrinə təyin ediliblər. 109 namizəd isə hazırda seçim prosesinin müxtəlif mərhələsindədir. Hakimliyə namizədlərin sənəd qəbulu hazırda davam etdirilir. Sədr məhkəmə hakimiyyətinin nüfuzunun artırılması istiqamətində görülmüş işlərdən danışıb, yeni hakimlərə şərəfli hakim adını hər zaman uca tutmağı, ədalətli, vicdanlı və məsuliyyətli olmağı tövsiyə edib.

Sonra hakimlər növbə ilə andiçmə üçün kürsüyə dəvət olunub. Onlar “Məhkəmələr və hakimlər haqqında” Qanunun tələbinə əsasən ədalət mühakiməsini Azərbaycan Respublikasının Konstitusiyasına və Qanunlarına tam uyğun olaraq, qərəzsiz, ədalətlə həyata keçirəcəyinə, hakimin müstəqilliyini və ləyaqətini qoruyub saxlayacağına, yüksək hakim adına hörmət ruhunda davranacaqlarına and içiblər.

Hakim vəzifələrinə yeni təyin olunmuş şəxslərə hakimin xüsusi geyim forması və xidməti vəsiqə təqdim olunub.

Daha sonra yeni təyin olunmuş hakimlər Gülşən Fərəcova və Kamal Babayev çıxış edərək, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına və ədalət mühakiməsinin prinsiplərinə dönmədən əməl edəcəklərinə söz veriblər.

# Mədəni sərvətlərə vahid qaydada pasport veriləcək



***Mədəni sərvətlərə vahid qaydada pasport veriləcək.***

”Unikal” xəbər verir ki, bu, Prezident İlham Əliyevin tətbiqi barədə Fərman imzaladığı ”Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” qanuna dəyişiklikdə əksini tapıb.

Fərmana əsasən, Nazirlər Kabineti daşınmaz abidələrin pasportlaşdırılması qaydalarını və pasportun nümunəvi formasını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

21_27 IYUl-QARA.qxd 6/5/2025 9:55 PM Page 7



# Prokuror "Oleq Bakinski"yə cəza istədi

***”Oleq Bakinski” kimi tanınan ukraynalı iş adamı Oleq Krapivin və onunla birgə ittiham olunan Konstantin Kuçerin cinayət işi üzrə məhkəmənin növbəti prosesi keçirilib.***



”Unikal”ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Elnur Nuriyevin sədrliyi ilə keçirilən prosesdə istintaqın yekunlaşması elan edildikdən sonra çıxışlar mərhələsinə start verilib.

Dövlət ittihamçısı Tural Yaqubov ittiham nitqi ilə çıxış edərək cinayət işi üzrə təqsirləndirilən Konstantin Kuçerin 14 il, Oleq Krapivinin isə 3 il azadlıqdan məhrum edilməsini məhkəməyə təklif edib.




Xatırladaq ki, Oleq Krapivinə Cinayət Məcəlləsinin 221.3-cü (xuliqanlıq, silah qismində istifadə olunan əşyalardan istifadə etməklə törədildikdə), 127.2.3 (Qəsdən sağlamlığa az zərər vurma), təqsirləndirilən Konstantin Kuçerə isə 178.4-cü (dələduzluq - xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 221.3-cü (xuliqanlıq, silah qismində istifadə olunan əşyalardan istifadə etməklə törədildikdə) maddəsi ilə də ittiham verilib.

Cinayət işi üzrə Rusiya vətəndaşı Zaxarenkov Valeriy Nikolayeviç, “Aviazapçast” ASC və ”Promışlennie Postavki Kazaxstan” MMC zərərçəkmiş qismində tanınıb.

”Oleq Bakinski” DİN Mütəşəkkil Cinayətkarlığa Qarşı Baş İdarəsi tərəfindən Bakıda həbs edilmişdi. Ötən prosesdə isə o, ev dustaqlığına buraxılıb.

***Seymur Əli***

# “Əmək Məcəlləsində böyük dəyişikliklər olunmalıdır”

## Eldəniz Əmirov: “Yeni dəyişiklik əmək bazarının yeni reallıqlarına uyğunlaşdırılmış hüquqi çərçivə yaratmaq üçündür”

***İqtisadçı Eldəniz Əmirov ”Unikal”a müsahibə verib. O, regionlarda kommunal ödənişlərin azaldılmasının hansı üstünlüklərinin ola biləcəyindən, rayonlarda kredit faizlərinin azaldılması üçün görüləcək işlərdən və Azərbaycanda saatlıq əməkhaqqı sisteminin tətbiq olunmasının vətəndaşlar üçün hansı imkanlar yaradacağından danışıb.***

***-Eldəniz müəllim, paytaxtda sıxlığı azaltmaq, insanların kəndə qayıtması üçün regionlarda kommunal ödənişlərin 2-3 dəfə azaldılması təklif olunur. Regionlarda kommunal ödənişlərin azaldılmasının hansı müsbət təsirləri ola bilər?***



-İstənilən təklifi irəli sürəndə bunun həyata keçirilməsinin nə qədər reallığa uyğun olub-olmamasını qiymətləndirmək lazımdır. İstər Milli Məclisdə, istər mediada, istərsə də digər ictimai platformalarda səsləndirilən hər bir təklifin gerçəkliyə əsaslandırılmasına ehtiyac vardır. Onun həyata keçirilməsi mümkündürmü? Məsələn, elə bir təklif səsləndirə bilərəm ki, insanlar alqışlayar. Amma özüm bilirəm ki, o təklifi həyata keçirmək mümkün deyil. Bunun iqtisadi əsası olmalı, mənfi tərəfləri, yan təsirləri olmalı deyil. Məsələn, təklif edim ki, vergilər 2 faizə endirilsin. Hamı alqışlayacaq. Amma bu gün alqışlayanın özünün belə sabahdan daha strateji problemləri başlayacaq. Ona görə ki, bu dolayısı ilə bir müddət sonra digər sahələrə mənfi təsir göstərir. Bu baxımdan, təkliflər səsləndiriləndə konstruktiv həll yolları ilə birlikdə, həmin təklifin həyata keçirilməsi üçün icra mexanizmi və ən əsası iqtisadi əsaslandırma mütləq olmalıdır. Regionlarda kommunal xidmət haqlarının 2-3 dəfə aşağı salınmasına gəldikdə, bu, mümkün deyil. Mən də bunun azaldılmasının tərəfdarıyam. Qiymətlər endirilsə, əla olar. Baxaq bu mümkündürmü? Regionlarda kommunal ödənişlərin 2-3 dəfə aşağı salınması mümkün deyil. Mümkün olan odur ki, regionlarımızda müəyyən kommunal xidmət növlərinin qiymətlərinin differensial olmasına ehtiyac vardır. Məsələn, qazın qiymətini qeyd edək. Bununla bağlı təkliflərimi səsləndirmişəm. Müəyyən hallarda bu gün səsləndirdiyimiz təkliflər bir müddət sonra daha fərqli formatda digər istiqamətlərdən səsləndirilir. Müəyyən təkliflərimiz olub ki, bir il sonra həyata keçib. Məhz regionlarda kommunal xidmətlərin qiymətlərinin differensiallaşdırılması ilə bağlı bu il də təklif vermişəm. Amma differensiallaşdırmaq qiyməti 2-3 dəfə aşağı salmaq deyil. Qiyməti belə aşağı salmaq çətin olacaq. Ona görə ki, kommunal xidmət göstərən qurumlar buna getməyəcək. Əgər buna gedəcəklərsə, o zaman əsaslandıracaqlar ki, bu xidmətin, məhsulun, kommunalın qiyməti bu qədərdir. Onda dövlət baba bunları qarşılamalıdır. Dövlət də nəyin hesabına qarşılamalıdır? Regiondakı şəxsin pensiyasını artırmalıdırsa, artıra bilməyəcək, başqa təminatını həyata keçirə bilməyəcək. Yəni, bütün hallarda ortada bəlli məbləğ var. Həmin məbləği hansı istiqamətə xərcləyəcəksənsə, digər istiqamətdə boşluq qalacaq. Buna görə differensiallaşdırma başqa yanaşmadır.

Məsələn, Bakının mərkəzində binanın orta mənzilində, hər tərəfi də mənzillərlə əhatələnmiş 1 ayda 15-20 manatlıq qaz istifadə edən insanla kənddə mənfi 10 dərəcə soyuqda, ətrafı boş olan evdə yaşayan kəndliyə eyni qaz limitinin verilməsi doğru deyil. Bu məsələni qaldırmaq lazımdır. Bəli, differensiallaşdırma proses olaraq asan deyil. Amma mümkündür. Eləcə də internet qiymtlərini qeyd etmək istərdim. Azərbaycanda evlərdə internet qiyməti minimum əməkhaqqının 7 faizini təşkil edir. Əksər ölkələrdə bu göstərici 2-3 faizdir. Əgər rəqəmsallaşma, internet əlçatanlığı deyiriksə, regionlardakılara ən azı internet xidmətlərini və zəruri olan qaz qiymətlərini endirmək olar. Bu, ciddi şəkildə araşdırıldıqdan sonra hər bir kommunal növü üzrə ayrıca differensiallıq olmalıdır.

***-Kredit faizləri də həmişə gündəmdə olan məsələdir. Belə ki, rayonlarda yaşayanlara kredit daha yüksək faizlə verilir. Regionlarda kredit faizlərinin aşağı salınması üçün hansı addımlar atılmalıdır?***

-Regionlarda kredit faizinin aşağı salınması üçün atılmalı olan birinci addım risklərin azaldılmasıdır. Niyə paytaxtda kredit faizi regionlarla müqayisədə aşağıdır? Çünki paytaxtda kreditin geridönüşü ilə bağlı risklər daha azdır. Bu bir iqtisadi davranış modelidir. Kredit verən tərəf kredit verdiyi insanın krediti geri qaytarması ilə bağlı riskləri yüksək qiymətləndirdikdə daha çox faiz tətbiq edir. Pulun batması ehtimalı çoxdursa, o zaman faiz yuxarı olur. Regionlarda iqtisadi aktivlik artarsa, götürülən pulların geri qaytarılması risklər azalacaqsa, faiz düşəcək. Yenə də məsələ ümumi iqtisadi aktivliyin üzərinə gəlir.

***-Məlum olduğu kimi, Azərbaycanda saatlıq əməkhaqqı sistemi tətbiq olunacaq. Bunun vətəndaşlar üçün hansı üstünlükləri olacaq?***

-Saatlıq əməkhaqqı sisteminin təbbi ki, vətəndaşlar üçün üstünlüyü çoxdur. Amma bu məsələ bütün vətəndaşlara tətbiq edilməyəcək. Saatlıq əməkhaqqı sisteminin müsbət və mənfi tərəfləri var. Bu təkcə sadə proses deyil. Burada hüquqi əsaslandırma yaradılmalıdır, iqtisadi tədqiqatlar, statistik təhlillər və digər araşdırmalar aparılmalıdır. Əmək Məcəlləsində böyük dəyişikliklər olunmalıdır. Bunların sonunda verilən qərardan asılı olaraq mənfi və müsbət tərəfləri ortaya çıxacaq. Ona görə ki, burada müxtəliflik, differensiallıq yaranacaq. Bu zaman texniki dəstəyin verilməsi, monitorinq olunması məsələsi var. Bunlardan sonra ümumi mənzərəni görə biləcəyik. Yəni, bu gün hansısa fürsətin verilməsi və yaxud ciddi effektin olacağını demək də çətindir. Ümumilikdə, dünyada belə model var. Bu baxımdan, müsbət dəyərləndirilməli haldır. Mənfi tərəfi odur ki, kiçik və orta sahibkarlar üçün əlavə yük yaradacaq. İnsanlar üçün isə əlavə fürsət verəcək ki, ən azından mövsümü işlərdə çalışanda daha effektiv qarşılıq görsünlər.

Onu da qeyd edim ki, saatlıq əməkhaqqı sistemi maaş artımı deyil. Bunu kim belə təqdim edirsə, doğru etmir. Yox, əgər kimsə də maaşınız azalacaq deyirsə, o da doğru demir. Minimum əməkhaqqı 350-dən 400 manata qalxıb və mövzu bir müddətlik bağlanıb. Amma indi sadəcə ”aylıq yox, saatlıq da hesablayaq” söhbəti gedir. Sual oluna bilər ki, bəs onda bu saatlıq sistem niyə ortaya çıxıb? Çünki iqtisadiyyat dəyişir. Artıq adamlar təkcə səhər saat 9-dan 6-ya qədər işləyən ”ştatlı” işçi deyil. Kimisi “freelance” işləyir, kimisi mövsümi. Kimisi evdn çalışır, kimisi həftədə 2-3 gün. Aylıq maaş sistemi isə bu reallığı ədalətli tənzimləmək gücündə deyil.

Başqa sözlə, bu dəyişiklik əmək bazarının yeni reallıqlarına uyğunlaşdırılmış hüquqi çərçivə yaratmaq üçündür. Əgər əvvəllər maaş yalnız aylıq sistemlə hesablanırdısa, indi həm aylıq, həm də saatlıq yanaşma paralel şəkildə tətbiq olunacaq. Bununla dünyada olmayan nəsə kəşf edilmir. Dünyada yalnız saatlıq əməkhaqqı tətbiq olunan ölkələrlə yanaşı bunu qarışıq tətbiq edənlər də var. Hətta bəzi ölkələrdə həftəlik minimum əməkhaqqı sistemi var. Böyük ehtimal ki, Azərbaycanda sahədən və xarakterindən asılı olaraq bəzi istiqamətlərdə saatlıq, bəzi istiqamətlərdə isə aylıq olmaqla qarışıq model olacaq. Odur ki, yeni sistem əsasən qısamüddətli əmək müqaviləsi ilə çalışanlara, həftəlik iş vaxtı normasının yarısından az işləyənlərə, mövsümi işlərdə olanlara, qeyri-daimi əmək fəaliyyətləri ilə məşğul olan şəxslərə və s. şamil ediləcək. Bu dəyişiklik əmək bazarının real vəziyyətini hüquqi sistemə uyğunlaşdırmaq üçün vacibdir. Məqsəd isə kiminsə qazanması və ya itirməsi deyil, sistemin adaptasiyası və çevikliyinin artmasıdır. Əsas odur ki, bu keçid düzgün icra olunsun, nəzarət və maarifləndirmə zəif olmasın.

***Anar Kəlbiyev***

21_27 IYUI-QARA.qxd 6/5/2025 9:55 PM Page 8



# Sahil Babayevdən müəmmalı gedişlər...

## O, maliyyə naziri vəzifəsinə təyin olunandan bəri hansı mübahisəli qərarlara imza atıb? - Təfərrüatlar...

***2025-ci ilin fevral ayında maliyyə naziri təyin olunan Sahil Babayev aradan keçən 3 ay müddətində bir sıra mübahisəli qərarlara imza atıb. Əmək və Əhalinin sosial müdafiəsi naziri postuna əyləşdikdən sonra xüsusilə əlillik dərəcələrinin verilməsi ilə bağlı absurd yeniliklərlə cəmiyyətdə kəskin tənqid hədəfinə çevrilən Babayev oxşar performansını maliyyə naziri postunda da davam etdirməkdədir.***

Belə ki, Sahil müəllimin yeni vəzifəsində ilk mübahisəli qərarlarından biri rəhbərlik etdiyi qurum tərəfindən banklara depozitlərin yerləşdirilməsi olub. Məsələn, aprel ayında Maliyyə Nazirliyi vahid xəzinə hesabının 500 milyon manat həcmində sərbəst qalığını kapitallaşma



və aktivlərinin məbləği səviyyəsinə görə ölkənin ən iri beş bankında 32 gün müddətinə, 7.04% orta çəkili faiz dərəcəsi ilə depozitə yerləşdirdiyini açıqladı.

Belədə isə cəmiyyətdə haqlı olaraq sual yarandı: dövlət öz pulunu niyə banklara yerləşdirir?

Həmin vaxt məsələ ilə bağlı "Unikal"a açıqlama verən iqtisadçı ekspert Natiq Cəfərli bildirmişdi ki, Maliyyə Nazirliyi tərəfindən dövlət vəsaitinin depozit kimi yerləşdirildiyi banklara qarşı təhlükə azalır: "Həmin banklara qarşı hər hansı təhlükənin olmadığını indidən deyə bilərik. Burada 5 iri bankdan söhbət gedir.Nəticədə müəyyən gəlir əldə olunur. Bu gəlir hesabına da digər xərclərin maliyyələşdirilməsi mümkündür. Burada əsas problem ondan ibarətdir ki, bank sektorunda rəqabətli mühit onsuz da o qədər də güclü deyil".

Bununla belə, ekspert vurğulamışdı ki, dövlət vəsaitlərinin yalnız iri banklarda yerləşdirilməsi kiçik və orta banklara ziyan vurur. "Onların rəqabətdən daha da kənarda qalmasına səbəb olur, rəqabətli mühit şəraitində fəaliyyət göstərməsinə maneçilik törədir", - Cəfərli əlavə etmişdi.

İqtisadçı, deputat Vüqar Bayramov isə Maliyyə Nazirliyi tərəfindən ölkənin ən iri beş bankında 32 gün müddətinə, 7.04% orta çəkili faiz dərəcəsi ilə depozitə yerləşdirməsində ən mühüm məqamlardan biri həmin bankların sayı ilə bağlıdır: "Sistem əhəmiyyətli bankların sayı 5 olduğundan nazirlik bu rəqəmlə kifayətlənib. Aydındır ki, belə selektiv yanaşma bank sektoru üçün arzuolunan deyil. Çünki bu sektorda təmərküzləşmə baxımından daha çox diskrimativ effekt yarada bilər".

Bayramov qeyd etmişdi ki, ümumiyyətlə, heç bir inkişaf etmiş ölkədə hər hansı sektorda iştirakçılar "yaxşı" və "pis oğlanlar" kimi qruplaşdırılmır. Onun sözlərinə görə, bu baxımdan, Maliyyə Nazirliyinin də öz hərraclarına ilk dördlük və ya ilk beşliyi deyil, reytinqlərinə uyğun bankları dəvət etməsi daha məqsədəuyğundur.

Sahil Babayevin daha bir maraq doğuran qərarı isə Maliyyə Nazirliyinin keçirdiyi tenderləri dayandırması, hətta bu tenderlərdən bəzilərinin ləğv etməsi olmuşdu. Məsələn, adı çəkilən nazirliyin Dövlət Xəzinədarlığı Agentliyinin tenderi dayandırılmışdı. Məlumata görə, Agentlik "Kadr potensialının inkişafı üzrə təlimlərin təşkili" layihəsini həyata keçirmək fikrində olub. Bunun üçün 146.792 manat pul da ayrılıb. Lakin Babayev nazir təyin edildikdən sonra bu tenderin nəticəsinin ləğv edilməsi barədə qərar verildiyi vurğulanırdı. Halbuki Sahil müəllim əmək və əhalinin sosial müdafiəsi naziri olarkən bir çox absurd tenderlərə məmnuniyyətlə "yaşıl işıq" yandırmışdı. Təkcə bir fakt: məsələn, 2023-cü ildə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Bakı, Gəncə, Mingəçevir, Şəki, Şirvan şəhərlərində və Salyan, Qax, Ağsu, Ağdaş, Astara rayonlarında 1, 2 və 3 otaqlı mənzillərin satınalınması üzrə 03.07.2023-cü il tarixdə başladığı açıq tenderə yekun vurulmuş və fiziki şəxs Ağaməmmədova Xanım Şamil qızı ilə 2.531.250 manat məbləğində satınalma müqaviləsi bağlanmışdı. Yerli medianın apardığı araşdırma zamanı məlum olmuşdu ki, tenderin qalibi 1951-ci ildəndir. "Maraqlıdır: 72 yaşlı bir qadın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üçün Bakı, Gəncə, Mingəçevir, Şəki, Şirvan şəhərlərində və Salyan, Qax, Ağsu, Ağdaş, Astara rayonlarında 1, 2 və 3 otaqlı mənzilləri necə satın alacaq?" - media həmin vaxt haqlı olaraq soruşurdu. Lakin qarşı tərəfdən hər hansı ağlabatan cavab gəlmirdi.

Nəticə etibarilə cəmiyyətdə haqlı olaraq sual yaranıb: əmək və əhalinin sosial müdafiəsi naziri ikən buna bənzər çox sayda tender keçirən Babayev maliyyə naziri olarkən hansı səbəbdən dövlət satınalma müsabiqələrinə həddsiz həssas yanaşmağa başlayıb? Ən əsası, bu yanaşma Sahil müəllimin yaxın adamlarının qatıldığı tenderlərə də şamil ediləcəkmi? Məsələn, bu yaxınlarda məlum olub ki, onun rəhbəri olduğu əvvəlki nazirlik bir neçə rayonda texniki peşə məktəblərinin maddi texniki-bazasının və təlim-tədris materiallarının beynəlxalq standartlara uyğunlaşdırılması üçün məsləhət xidmətlərinin satın alınmasını əhatə edən müsabiqə keçirib. Bu məqsədlə "BİS CO" MMC ilə 1 milyon 172 min 589 manatlıq müqavilə bağlanılıb. Araşdırma nəticəsində məlum olub ki, "BİS CO" MMC son iki ildə cəmi 5 tenderdə iştirak edib və qalib olub. Məsələnin maraqlı tərəfi odur ki, bu şirkət yalnız Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tenderlərinə qatılıb və qalib olub. Özü də Babayevin zamanında!

Yerli mediada tirajlanan araşdırmada "Bis Co" MMC-nin əslində Sahil müəllimin adı çəkilən nazirlikdəki müavini Vüsal Nəsirlinin nəzarətində olduğu bildirilib.

Maliyyə naziri olaraq Babayevin tenderlərə həssas münasibəti anlaşılandır, lakin maraqlıdır: eyni münasibət nə üçün ona yaxın şəxslərin böyük məbləğlərlə ifadə edilən tenderlərinə şamil deyil?!

***Sənan Mirzə***

# Kəmaləddin Heydərov Əmr imzaladı

***Fövqəladə Hallar Nazirliyi Qurban bayramı ilə əlaqədar gücləndirilmiş iş rejimində çalışacaq.***

"Unaikal" xəbər verir ki, bununla bağlı fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Əmr imzalayıb.

Əmrə əsasən, Qurban bayramı ilə əlaqədar qeyri-iş günlərində vətəndaşların həyat və fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi, insanların daha çox toplaşdığı məkanlarda, həyat təminatı və digər mühüm əhəmiyyətli obyektlərdə baş verə biləcək fövqəladə hadisələrə çevik reaksiya verilməsi, onların mümkün nəticələrinin operativ şəkildə aradan qaldırılması işinin təşkil edilməsi məqsədilə nazirliyin aidiyyəti struktur bölmə və qurumlarına müvafiq tapşırıqlar verilib.

# Mərkəzi Bank ötən il 500 milyon gəlir əldə edib

***Mərkəzi Bank 2024-cü ildə valyuta ehtiyatlarının idarə edilməsində daxili idarəetmə ilə yanaşı, xarici menecerlərlə əməkdaşlığı davam etdirib.***




"Unikal"a bu barədə Azərbaycan Mərkəzi Bankına (AMB) istinadən xəbər verir. Məlumata görə, AMB 2024-cü ildə xarici pul və istiqraz bazarlarında mövcud əlverişli mühit və nisbi gəlirliliyin artırılması istiqamətində tətbiq edilən portfel strategiyaları nəticəsində valyuta aktivlərinin idarə edilməsindən rekord məbləğdə, 491.6 milyon ABŞ dolları gəlir əldə edilib. İnvestisiya portfelinin gəlirliliyi isə 4.5% təşkil edib.

Qeyd edilib ki, Mərkəzi Bankın rəsmi valyuta ehtiyatları hesabat ili ərzində əsasən daxili bazarda valyuta satışları və məzənnə fərqi hesabına 653.5 milyon ABŞ dolları və ya 5.6% azalaraq 2024-cü ilin sonuna 10.96 milyard ABŞ dolları təşkil edib.

# Sosial, işsizlikdən və icbari tibbi sığorta daxilolmaları artıb

***Bu ilin yanvar-may aylarında Azərbaycanda muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 2 milyard 579 milyon manat təşkil edib.***

"Unikal" bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə istinadən xəbər verir.

Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 12,3 % və yaxud 283,2 milyon manat çoxdur. O cümlədən, son 1 ildə qeyri-büdcə təşkilatları

üzrə daxilolmalar 13,3 % artaraq 1 milyard 718,5 milyon manat olub.

Hesabat dövründə işsizlikdən sığorta haqları üzrə daxilolmalar 10,7 % artaraq 91,9 milyon manata, o cümlədən qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 11,9 % artaraq 70,3 milyon manata çatıb. İl ərzində icbari tibbi sığorta haqları üzrə daxilolmalar isə 11,2 % artaraq 448,6 milyon manat, o cümlədən qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 10,5 % artaraq 316,5 milyon manat təşkil edib.



# Nəzrinin ölümündə təqsirləndirilən həkim məhkəmə qarşısında

***Burun əməliyyatından sonra komaya düşən Nəzrin Mansurlunun ölümü faktı ilə bağlı cinayət işi üzrə məhkəmənin ilk hazırlıq iclası keçirilib.***

"Unikal"ın məlumatına görə, Nəsimi rayon Məhkəməsində hakim Solmaz Mustafayevanın sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən cərrah Sənan Mehdiyevin anket məlumatları dəqiqləşdirilib.

Təqsirləndirilən barədə seçilmiş həbs qətimkan tədbirinin dəyişdirilmədən isin məhkəmə baxışına verilməsi ilə bağlı müzakirə aparılıb.

Təqsirləndirilən həkimin vəkili isə vəsatət təqdim edərək məhkəmənin hazırlıq iclasının təxirə salınmasını xahiş edib. O, bildirib ki, müəyyən məsələlərlə bağlı sorğular müvafiq qurumlara ünvanlanıb və həmin sorğular cinayət işi üçün əhəmiyyət kəsb edir.

Müəyyən anket məlumatları dəqiqləşdirilmədiyindən hazırlıq iclası iyunun 13-dək təxirə salınıb.

Qeyd edək ki, bu il yanvarın 12-də 1995-ci il təvəllüdlü Nəzrin Mansurlunun rinoplastika əməliyyatından sonra vəziyyətinin kəskin ağırlaşması səbəbindən yerləşdirildiyi xəstəxanada ölməsi faktı üzrə Nəsimi rayon prokurorluğunda cinayət işi başlanılıb.

İstintaqla həkim-otorinolarinqoloq Sənan Mehdiyevin yanvarın 3-də Nəzrin Mansurlunun üzərində rinoseptoplastika cərrahi-əməliyyatını qüsurlu icra etməsi səbəbindən sonuncunun ölümünə səbəb olmasına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Sənan Mehdiyevə Cinayət Məcəlləsinin 314.2-ci (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olan səhlənkarlıq) maddəsilə ittiham elan edilməklə cinayət işi baxılması üçün aidiyyəti üzrə rayon məhkəməsinə göndərilib.

***Seymur Əli***

# Kartlardan 9 min manatdan çox pul oğurlandı



***Daxili İşlər Nazirliyi vətəndaşlara müraciət edərək bank kartı məlumatlarının ələ keçirilməsi ilə bağlı oğurluq hallarına qarşı ehtiyatlı olmağa çağırır.***

"Unikal" xəbər verir ki, iyunun 4-də daxil olan müraciətlər əsasında aparılan araşdırmalar nəticəsində bir sıra şəxslərin bank hesablarından qanunsuz yolla pul vəsaitlərinin çıxarıldığı müəyyən olunub. Oğurlanmış məbləğlər arasında 7000, 881, 464, 354, 300, 170, 100, 100, 70, 70 və 68 manat kimi rəqəmlər qeydə alınıb.

Bu cür cinayət halları adətən naməlum nömrələrdən gələn zəng və SMS-lər, habelə saxta saytlar və platformalar vasitəsilə həyata keçirilir. Şəxsi bank kartı məlumatlarını, xüsusilə, kartın nömrəsini, PIN kodunu, CVV kodunu və bir dəfəlik təsdiq (OTP) şifrələrini heç bir halda digər şəxslərlə, o cümlədən özünü bank və ya dövlət qurumu əməkdaşı kimi təqdim edən şəxslərlə paylaşmaq olmaz.

DİN vətəndaşları bir daha xəbərdar edir ki:

- Naməlum nömrələrə cavab verərkən ehtiyatlı olun,
- SMS və e-poçtlardakı şübhəli keçidlərə daxil olmayın,
- Heç bir halda bank kartı və mobil bankçılıq məlumatlarınızı paylaşmayın.

Qeyd edək ki, belə hallarla üzləşən şəxslər dərhal polis orqanlarına və banklara müraciət etməlidirlər.

# Abel Məhərrəmovdan absurd açıqlama

## Həftənin replikası: sabiq rektor kimi aldatmağa çalışır: bizi, yoxsa özünü?

***Azərbaycanda sabiq vəzifəli şəxslərin postlarını tərk etdikdən sonra özlərinin "təmiz, xeyirxah" obrazını yaratmağa çalışması adət halını alıb. Söhbət xüsusilə vəzifədə olarkən haqlarında rüşvət və korrupsiya iddialarının sayı-hesabı olmayan keçmiş məmurlardan gedir. Belə sabiqlərin siyahısına bu günlərdə Bakı Dövlət Universitetinin eks-rektoru Abel Məhərrəmov da qoşulub.***

"Ən çox güzəştə getdiyim bilirsiz nə olub?! Düzünü danışmaq lazımdır. Görürsən ki, tələbədir, təqaüdə ehtiyacı var. Qayda belədir də, imtahanda 91 və ondan yuxarı bal yığan tələbə yüksək təqaüd alır. Nümunə gətirdiyim isə 89-90



bal alıb. Yəni 1 balı çatmır. 5 ballıq sistemdə 4-5 almaq ayrı şeydir, 100 ballıq sistemdə 90-la 91-in arasında o qədər fərq yoxdur. Komissiya yaradırdım, deyirdim ki, o tələbəyə kömək edin" - RTV-yə müsahibəsində Məhərrəmov belə deyib.

Sabiq rektor hətta ona qarşı haqsızlıqlar edildiyini, bu haqsızlıqları edənlərin isə bu gün də peşman olduqlarını bildirib.

Abel müəllimin müsahibəsində ən diqqətçəkən məqam isə onun özünü tələbələrin himayədarı və xeyirxahı kimi göstərmək istəməsidir.

Halbuki Abel müəllimin BDU-ya rəhbərlik etdiyi dövr daha çox tələbələrdən rüşvət tələb edilməsinə dair qalmaqallarla yadda qalıb.

Məsələn, 2017-ci ildə ölkənin ən qocaman universitetinin tələbəsi Zəka Mirağayev İlahiyyat fakültəsindəki rüşvət hallarının araşdırılmasını tələb etmiş, hətta buna görə Abel Məhərrəmov tərəfindən məhkəməyə verilmişdi. Bununla o, Azərbaycan təhsil tarixində tələbəsini məhkəməyə verən ilk (və yeganə!) rektor kimi tarixə düşmüşdü. Məsələ burasındadır ki, adı mütəmadi olaraq rüşvətdə hallanan özəl təhsil ocaqlarının rektorları belə öz tələbələrini məhkəməyə verməyib.

"İlkə imza atmaqda" mahir olan A.Məhərrəmovun rektor olaraq daha bir "uğur"u da var: yenə Azərbaycan təhsil tarixində birinci dəfə məhz BDU tələbələri rüşvətə qarşı etiraz aksiyası keçirmişdi. O vaxtadək analoji hal heç bir ali məktəbin təcrübəsində baş verməmişdi. Sözügedən aksiya zamanı BDU-nun tarix fakültəsinin 4-cü kurs tələbəsi Ramilə Kiçiyeva rüşvət vermədiyi üçün imtahandan kəsildiyini mikrofona demişdi.

2016-cı ildə isə ölkə KİV-i ilginc bir olay barədə yazmışdı: həmin vaxt məlum olmuşdu ki, 2015-ci ilin yanvar ayında BDU-nun hüquq fakültəsinin bir tələbəsi kəsirləri olması səbəbindən dövlət imtahanı vermədən hərbi xidmətə gedib. Tələbə həmin ilin may ayında, rəsmən hərbi xidmətdə olmasına baxmayaraq, kəsirlərini verib qurtarmış olur. Bunu necə etdiyi isə çox keçmədən anlaşılıb: belə ki, o, may ayında 2 günlük məzuniyyətə gəlib, dövlət imtahanında iştirak edərək "imtahan" verərək geri dönüb. Nəticədə də passiv tələbəliyini bitirib və diplomunu alaraq 1 il hərbi xidmət keçib. Həmin vaxt bu qanunsuz əməliyyatı həyata keçirmək üçün tələbənin o vaxt vəzifədə olan valideyinindən 40 min manat alındığı bildirilmişdi.BDU rəhbərliyi isə deyilənləri təsdiqləməsə belə, təkzib də etməmişdi.

"Son zamanlara qədər BDU-da rüşvətxorluq baş alıb gedir, hətta bu səbəbə görə bir çox dekanlar həbs olunublar. Nə qədər insana saxta diplom verdikləri rəsmən təsdiqlənib. Abel Məhərrəmovu isə bu hallar qətiyyən narahat etmirdi. O, hətta 2014-cü ildə keçirdiyi mətbuat konfransında bir şəhid qızıyla media nümayəndələrinin qarşısında mübahisə edərkən, universitetdə rüşvət faktını etiraf etmiş, "pul versəydin, kəsilməzdin" demişdi. Abel Məhərrəmov həmin xoşagəlməz hadisələrdən dərhal sonra cəzalandırılmalı idi" - bunu isə sabiq rektor vəzifədə olarkən keçmiş millət vəkili, prokuror və ədliyyə naziri mərhum İlyas İsmayılov demişdi.

O, açıq şəkildə bəyan etmişdi ki, ölkədə 600 və daha yüksək bal toplayanların böyük əksəriyyəti bu ali məktəbdə oxumağı seçirlər. Abel Məhərrəmovu nəzərdə tutaraq İsmayılov: "Bu cür istedadlı gənclərin taleyinin özünü apara bilməyən rəhbərlərə həvalə edilməsi Azərbaycanın gələcəyinə vurulmuş ən böyük zərbədir" deyə vurğulamışdı.

Bütün bu faktlar ortada ikən indi sabiq rektorun BDU-ya rəhbərlik etdiyi dövrü az qala "süddən çıxmış ağ qaşığa" bənzətməyə çalışması təəccüb doğurmaya bilməz. Görünür, istər Məhərrəmov, istərsə də postlarını tərk etdikdən sonra özlərinin "təmiz, xeyirxah" obrazını yaratmağa çalışan bütün sabiq vəzifəli şəxslər "unutqan xalq" olduğumuza dair illərdir formalaşmış qənaətə arxayındırlar. Yəni belə düşünürlər ki, əgər unutqan xalqıqsa, deməli, hətta ən yaxın tarixi belə özlərinə sərf edən formada təhrif, ya da təqdim edə bilərlər.

Əlbəttə, xalq olaraq müəyyən məqamlarda unutqan davrana bilərik, ancaq sabiq məmurlarımız düşündüyü qədər də yaddaşsız deyilik və kimlərin vəzifədə necə varlandıqlarını, ağlasığmaz sərvət sahiblərinə çevrildiklərini, oliqarxlaşdıqlarını yaxşı xatırlayırıq. Yaxşı xatırlayırıq, çünki bunu nə kitablardan oxumuşuq, nə filmlərdən görmüşük. Hər şey gözümüzün qabağında baş verib, gün kimi aydın şəkildə yadımızdadır, ona görə də keçmiş vəzifəlilərin özləri barədə "təmiz, xeyirxah" obrazı yaratmaq cəhdləri əbəsdir...

***Toğrul Əliyev***

21_27 IYUI-QARA.qxd 6/5/2025 9:55 PM Page 10



# Teymur Musayevin dişsizliyi, yoxsa...

## Azərbaycan səhiyyəsində başıpozuqluq: nazirliyi saya salan yoxdur?



***Daha bir həkim əməliyyat zamanı çəkdiyi videonu izləyicilərinə nümayiş etdirib. Belə ki, bu dəfə tanınmış Mammoloq-Radioloq Günel Qəmbərova bu addımı atıb.***

Məlhəm Beynəlxalq Hospitalında pasiyentin bədəninin videosunu yayımlamaqdan çəkinməyən G.Qəmbərovanın proses zamanı bayağı davranışı da birmənalı qarşılanmayıb.

Qeyd edək ki, bir müddət əvvəl Səhiyyə Nazirliyi (SN) Analitik Ekspertiza Mərkəzi əməliyyat zamanı yayım açan həkimlərə xəbərdarlıq edib: "Əməliyyat zamanı çəkiliş yalnız elmi-tədris məqsədi ilə tam sanitar-gigiyenik qaydalara riayət edilməklə, cərrahiyyə otaqlarında xüsusi tələblərə uyğun (sterillik) quraşdırılan texniki avadanlıqlar vasitəsi ilə həyata keçirilə bilər. Bu qaydalara əməl etməyərək, digər avadanlıqlarla çəkilişlərin aparılması gigiyenik qaydaları pozur və infeksiyanın yayılması üçün münbit şərait yaradır.

Yuxarıda qeyd olunan fəaliyyət, "Reklam haqqında" Qanunun 29.1-ci maddəsinə əsasən reklam hesab olunur və İnzibati Xətalar Məcəlləsinin 428.4-ci maddəsinə əsasən tətbiqinə icazə verilməyən müalicə, profilaktika, diaqnostika və reabilitasiya metodlarının reklam edilməsinə görə vəzifəli şəxslər üç yüz (300) manatdan beş yüz (500) manatadək məbləğdə, hüquqi şəxslər min (1000) manatdan iki min (2000) manatadək məbləğdə cərimə edilir", - məlumatda vurğulanıb.

Lakin göründüyü kimi, G.Qəmbərova sözügedən videonu yaymaqla faktiki olaraq Teymur Musayevin rəhbərlik etdiyi nazirliyin xəbərdarlığını saya salmayıb.

Oxşar hal - Səhiyyə Nazirliyinin başqa bir xəbərdarlığına hörmətsizlik Bakıda yerləşən "MayoMed" klinikası tərəfindən də baş verib. Belə ki, iddiaya görə, Bakıda yerləşən "MayoMed" klinikasında özünü plastik cərrah kimi təqdim edən Nihad Aslanov adlı həkim çalışır, amma onun tibb sahəsi üzrə heç bir təhsili yoxdur. Aslanov Azərbaycan Dövlət Neft və Sənaye Universitetini (ADNSU) bitirib. Bununla bağlı Baku TV-yə vətəndaş müraciət edib.

Təxminən iki ay əvvəl Analitik Ekspertiza Mərkəzi tərəfindən klinikada yoxlama aparılıb və Nihad Aslanovun işinə son verildiyi iddia olunur. Amma son vaxtlar həmin şəxs yenidən "MayoMed" klinikasında pasiyent qəbul edir. O, yeni sosial media hesabı açaraq fəaliyyətini davam etdirir. Hətta Baku TV-nin əməkdaşı bu barədə araşdırma apararkən öncə pasient olaraq Aslanova müraciət edib və qəbula yazılıb!

Klinikanın əməkdaşı isə şikayətin həqiqəti əks etdirmədiyini və Nihad Aslanovun klinikada çalışmadığını deyib: "Nihad bəy artıq 4-5 ay əvvəl klinikadakı işindən ayrılıb. Hazırda Nihad bəy adlı əməkdaşımız yoxdur". Lakin jurnalist ona Aslanovun pasient qəbulu ilə bağlı videogörüntüləri təqdim edib və özünü hər şeydən xəbərsiz göstərməyə çalışan klinika əməkdaşı susmaq məcburiyyətində qalıb.

Məsələ ilə bağlı Səhiyyə Nazirliyindən bildirilib ki, plastik cərrahiyyə ixtisası üzrə praktik tibb fəaliyyətinə icazə verilən həkimlərin arasında Nihad Aslanovun adı yoxdur: "2023-cü ildə "MayoMed" klinikası üzrə planlı yoxlama keçirilib və klinika inzibati məsuliyyətə cəlb edilib, həkimin fəaliyyəti dayandırılıb. Bundan sonra həkimin fəaliyyəti ilə bağlı Səhiyyə Nazirliyi yanında Analitik Ekspertiza Mərkəzinə hər hansı məlumat daxil olmayıb".

Lakin iddialar və faktlar fərqli reallıqdan xəbər verir: "MayoMed" klinikası nazirlik tərəfindən inzibati məsuliyyətə cəlb edilməsini də heçə sayıb, N.Aslanovun həkim olaraq fəaliyyətinin dayandırılması ilə bağlı nazirliyin qərarını da?

Həm cərrahi əməliyyat zamanı çəkdiyi videonu izləyiciləri ilə paylaşan həkimin, həm də "MayoMed" klinikası ilə N.Aslanovun saymazyana davranışlarından belə çıxır ki, Səhiyyə Nazirliyi tərəfindən edilən xəbərdarlıqları, verilən əmrləri saya salan yoxdur. Bu, nazir Teymur Musayevin dişsizliyi ilə bağlıdır, yoxsa biriləri nələrinsə müqabilində, ya da kimlərəsə arxalanaraq SN-in xəbərdarlıqlarını, göstərişlərini ciddiyə almırlar, açığı, konkret deyə bilmərik. Lakin orası dəqiqdir ki, Oqtay Şirəliyevin gedişindən sonra gözləntilər özünü doğrultmayıb - ölkə səhiyyəsindəki başıpozuqluq, xaos bir az da dərinləşib...

*Sənan Mirzə*

# Özəl məktəb müəllimləri də sertifikasiyaya cəlb oluna bilər

***Azərbaycanda bu ay müəllimlərin sertifikasiya imtahanı keçiriləcək. Elm və Təhsil Nazirliyinin məlumatına görə, bu il təşkil olunacaq sertifikatlaşdırılma prosesinə kimya, biologiya, fizika, coğrafiya, informatika fənlərini tədris edən müəllimlər ilk dəfə cəlb olunacaqlar.***

18-25 iyun tarixlərində keçiriləcək imtahanlarda, həmçinin indiyədək sertifikatlaşdırmadan keçməyən ibtidai sinif, Azərbaycan dili və ədəbiyyat, riyaziyyat və xarici dil (ingilis dili, rus dili, Azərbaycan dili (rus bölməsi), alman dili, fransız dili və s.) müəllimləri də prosesdə iştirak edəcəklər.

Qeyd edək ki, sertifikasiya prosesi yalnız dövlət məktəblərində dərs keçən müəllimlərə şamil edilir. Özəl məktəblərin tədris prosesində iştirak edən müəllimlər isə bu prosesə cəlb edilmir.

"Unikal"ın məlumatına görə, məsələ ilə bağlı "AzEdu.az"a açıqlamasında Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Mehriban Vəliyeva bildirib ki, özəl müəssisələrin müəllimləri də sertifikatlaşdırma prosesinə cəlb olunmalıdır, çünki müəllimin davamlı inkişafı vacib amildir

"Sertifikatlaşdırma müəllimin öz üzərində davamlı işləməsi, nəticəsini yaxşılaşdırması üçün ciddi stimul yaradır. Davamlı öyrənmə mühiti müəllim-şagird-ailə üçbucağının əsas missiyasıdır. Burada müəllim amili peşəkar, motivasiya edən, üfüq açan və daha yeni öyrənmə vasitələri ilə şagirdlərini gələcəyə hazırlayan şəxs kimi xarakterizə olunur. Müəllimlərin bilik və bacarıqlarının sertifikasiya vasitəsilə ölçülməsi öyrənmə prosesində məhz bu hədəflərə çatmanı ifadə edir", - deputat qeyd edib.

Müəssisələrin qiymətləndirilməsinə gəldikdə isə Mehriban Vəliyeva bildirib ki, müvafik meyarlara görə bütün müəssisələrin qiymətləndirilməsi təhsil keyfiyyətinin ölçülməsi baxımından əhəmiyyətlidir: "Belə monitorinqlər TKTA tərəfindən aparılır və nəticələrə görə dəstəkverici tədbirlər görülür. Müəllimlərin və təhsil müəssisələrinin qiymətləndirilməsi üçün meyarların davamlı olaraq təkmilləşdirilməsi diqqətdə saxlanmalı, proses nəticəyönümlü olmalıdır. Düşünürəm ki, bu istiqamətdə də işlər aparılır".

# "BBC" Azərbaycana qərəzli münasibətinə görə qınanıldı

***"BBC" kimi qlobal nüfuza malik media qurumunun Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Ermənistana tərəfkeşlik etdiyi görünür.***

"Unikal" xəbər verir ki, bu barədə Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru, tanınmış jurnalist və siyasi şərhçi Reyçel Avraham Kanadanın populyar "THEJ.CA" nəşrində dərc olunan "BBC-nin qərəzi üzə çıxdı: Ermənistanı dəstəkləmək, qlobal yayımda İsraili ləkələmək" başlıqlı məqaləsində yazıb. Müəllif məqaləni "dünyanın ən nüfuzlu yayım orqanlarından birinin faktların təhrifi yolu ilə Qafqaz və Yaxın Şərqdəki münaqişələrdə fikir ayrılıqlarını alovlandırmasına dair araşdırma" adlandırıb.

Qeyd olunub ki, dünya mediasında saxta xəbərlər qlobal bir fenomenə çevrilib. Təəssüf ki, bu vəziyyət "BBC" kimi tanınmış və nüfuzlu media orqanına da sirayət edib. "BBC"-də bu yaxınlarda yayımlanan "Ermənistan Qafqazda Silikon Vadisi qurmağa necə çalışır?" başlıqlı məqalə bu xüsusda hər şeyi deyir. Məqalədə Ermənistanın texnoloji startapları cəlb etmək səylərinə və digər bu tip mövzulardan bəhs olunması gözlənildiyi halda əsas diqqət üç "LED" işığına qoşulmuş qutu yaradan 9 yaşlı erməni uşağına ayrılıb. Reyçel Avraham bu situasiyada məqalənin əsl məzmununu tamamilə təhrif edən başlığın seçilməsini Ermənistanı şöhrətləndirmək cəhdi kimi qiymətləndirib.

İsrailli politoloq sözügedən məkrli başlıq seçimindən əlavə "BBC"-nin məqaləsində həm Qafqazda, həm də xaricdə Azərbaycanın tərəfdarlarının hiddətinə səbəb olan məsələlərdən birinə diqqət çəkib: "2,7 milyon əhalisi ilə dənizə çıxışı olmayan Ermənistan Cənubi Qafqaz regionunda ən kiçik ölkədir və qonşuları - Azərbaycan və Türkiyə ilə sərhədləri həll edilməmiş ərazi mübahisələrinə görə onilliklər ərzində bağlıdır". Daha sonra bununla bağlı tutarlı iradlarını bildirib. Ermənistanın coğrafi mövqeyinə, dənizə çıxışının olmamasına görə Azərbaycan və Türkiyənin məsuliyyət daşımadığını qeyd edərək həmin məsələ ilə bağlı vacib suallar ünvanlayıb: "Ermənistan sahil xəttinəmi köçürülməlidir? Yoxsa onun sərhədləri Xəzər dənizinə, Qara dənizə, hətta Aralıq dənizinə doğrumu genişləndirilməlidir? Bəlkə "BBC" Ermənistanın hər üç dənizə çatmağına üstünlük verir?!". Müəllif erməni təbliğat orqanında deyil, neytral olması gözlənilən nüfuzlu Britaniya media qurumunda yer alan belə bir iddianı ciddi qəbul etməyi problemli məsələ adlandırıb.

Yazıda "BBC"-nin qərəzli davranışının təkcə Azərbaycanla məhdudlaşmadığı, onların dünyagörüşünü bölüşməyən digər ölkələrə, o cümlədən İsrailə də şamil edildiyi diqqətə çatdırılıb.

# Zori Balayanı şillələyən Milli Qəhrəmanın məzarı bərpa edildi



***Azərbaycanın Milli Qəhrəmanı Vüqar Hüseynovun Cəbrayıl rayonunun Daşkəsən kəndində dağıdılmış məzarı bərpa olunub.***

1993-cü ildə Cəbrayıl rayonunun işğal olunması ilə Milli Qəhrəmanın məzarı da düşmən əsarətində qalmışdı. Ermənilər Vüqar Hüseynovun işğal altındakı Daşkəsən kəndində yerləşən məzarını dağıtmaqla öz hesablarınca, ondan qisas almışdılar.

2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi nəticəsində Cəbrayıl rayonunun düşməndən azad edilməsi Milli Qəhrəmanın məzarı da erməni əsarətindən qurtardı.

Vüqar Tofiq oğlu Hüseynov 20 iyun 1969-cu ildə Cəbrayıl rayonunun Daşkəsən kəndində dünyaya gəlib. 1986-cı ildə orta məktəbi bitirib. Sonra Bakıda 14 saylı texniki-peşə məktəbində təhsilini davam etdirib, elektrik qaynaqçısı ixtisasına yiyələnib. 1987-ci ildə hərbi xidmətə çağırılıb və Daxili Qoşunlarda xidmət edib.

1989-cu ildə hərbi xidməti başa vuraraq, Binəqədi Neft və Qazçıxarma İdarəsində elektrik qaynaqçısı kimi əmək fəaliyyntinə başlayıb.

80-ci illərin sonlarında erməni qəsbkarlarının Qarabağda törətdikləri qatı cinayətlərə dözə bilməyən V.Hüseynov 1990-cı ilin oktyabrında könüllü olaraq Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı polis dəstəsinə yazılıb.

Vüqar Xocalıda, Çaykənddə erməni quldurlarına qarşı rəşadətlə vuruşub, Goranboy rayonunun bir sıra kəndlərinin erməni işğalçılarından azad edilməsində böyük şücaət və qəhrəmanlıq göstərib.

Şəhid jurnalist Salatın Əsgərovanın qatillərinin tapılmasında onun da xidməti olmuşdu.

Döyüş yoldaşlarının dediyinə görə, Vüqar Hüseyov 1991-ci ildə Xocalı hava limanında erməni separatçılarının məşhur ideoloqu (sonradan Xocalı qatillərindən birinə çevrilən) Zori Balayanı şilləyərək Azərbaycandan çıxıb getməyi tələb etmişdi.

1991-ci il iyulun 20-də ermənilər böyük qüvvə ilə Goranboy rayonunun Buzluq kəndinə hücuma keçəndə, düşməni qarşılayan igidlərimiz sırasında Vüqar Hüseynov da olub. O və döyüş yoldaşları sinəsini sipər edərək düşməni geri çəkilməyə məcbur ediblər. Bu, Vüqarın son döyüşü idig

O, Buzluq kəndindəki savaşda qəhrəmancasına şəhid olmuşdu. Ölümündən sonra cəsur döyüşçü "Qırmızı Ulduz" ordeni ilə təltif edilib.

Prezidentin 6 iyun 1992-ci il tarixli fərmanı ilə Vüqar Hüseynova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Milli Qəhrəman subay idi.

Doğulduğu Daşkəsən kəndində dəfn edilən V.Hüseynovun adı oxuduğu kənd məktəbinə verilmişdi.

# AHİK üzvləri evdən çıxmadan sanatoriyalara yollayış alacaqlar

***Azərbaycanda "e-ahik" elektron informasiya sistemi istifadəyə verilib.***



"Unikal" xəbər verir ki, bunu bu gün Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təşkilatçılığı ilə keçirilən tədbirdə Qurumun Aparat rəhbərinin müavini Abbas Əliyev bildirib.

Onun sözlərinə görə, artıq AHİK üzvləri artıq evdən çıxmadan, canlı təmasa ehtiyac olmadan sanatoriya və istirahət mərkəzlərinə yollayış əldə edə biləcəklər. Müraciətlər tamamilə elektron şəkildə, tək şəxsiyyət vəsiqəsi ilə həyata keçiriləcək. Daha sonra təsdiq alan şəxslər təqdim edilən sənədlə müvafiq sanatoriya və istirahət mərkəzinə yaxınlaşa biləcəklər. Bu, tamamilə yeni layihədir və AHİK üzvlərinin işini asanlaşdıracaq.

# Müştərilərdən borcunu geri ala bilmədiyi üçün batmağa başlayan şirkətlər...

## Zərərlə işləyən, mənfəəti azalan bank olmayan kredit təşkilatlarının sayı günbəgün artır... - BOKT-larla bağlı SOS!

***Banklarda kreditlə bağlı vəziyyət yaxşı deyil. Problemli kreditlərin ümumi portfeldə payı zamanla yalnız artır. Məsələn, 2024-cü ilin dekabrında məlum olmuşdu ki, bir il əvvəlin eyni dövrü ilə müqayisədə 13 faiz artım var. Rəsmi açıqlamalarda təxminən 500 milyon manatdan danışılır. Amma bankların ayrı-ayrılıqda hesabatlarındakı rəqəmlər daha böyük məbləğ ortaya çıxarır.***

"Bizimyol.info"nun araşdırması zamanı məlum olub ki, bank olmayan kredit təşkilatları (BOKT) böyük zərərlə işləyir. bank olmayan kredit təşkilatı az qala hər il zərərlə işləyir. Qurum o qədər sürətlə kiçilir ki, hələ də fəaliyyət göstərməsi təəccüblüdür. Kredit təşkilatının azı 6 ildir gerilədiyini müşahidə edirik. Halbuki "Finans İnvest" cəmi 8 ildir fəaliyyət göstərir. Səhmdarlar ayrı-ayrı vaxtlarda təşkilatın ilkin kapitalını beş dəfədən çox artırmağa nail olsa da, işlər heç vaxt qaydasında getmir.

Təkcə istehlak kreditlərinin həcminin getdikcə artması müştərilərin sosial vəziyyətini anlamaq üçün kifayət edir. İnsanlar ən kiçik problemlərin həlli üçün banklara, kredit təşkilatlarına üz tutmalı olur. Dərd



Bəzisinin zərəri milyon manatı keçir. Bizə heç də az görünməsin. Çünki kredit portfelinin yalnız 5,9 faizini BOKT-lar müştərilərə paylayır. Daha çox pay banklara düşür. Buna baxmayaraq, kredit təşkilatları da müştərilərin kəskin borclanmasının qarşısını ala bilmir. Üstəlik, zərərin həcmi böyüyür.

"Para BOKT"un zərəri 1,2 milyon manata çatıb. "Payonix BOKT" 171 min, "Nova Kredit" 72 min, "İrşad BOKT" 68 min, "Azfinans BOKT" isə 38,7 min manat zərər edib. "TBC Kredit"in mənfəəti 18 dəfə azalıb. Mənfəət müstəvisində "Finex BOKT"un 70, "TCF BOKT"un 31, "FİNCA"nın isə 19,2 faiz geriləməsi diqqət çəkir. Ümumiyyətlə, kredit təşkilatlarının sürətlə kiçilməsi nəzərə çarpır. Sanki tezliklə əksəriyyəti sıradan çıxacaq.

"Finans İnvest" haqqında ayrıca danışmaq lazımdır. Bu orasındadır ki, həmin təşkilatların durumu da indi müştərilərdən çox da fərqlənmir. Əksəriyyəti geri gedir.

"Unikal" xatırladır ki, Azərbaycanda bir sıra BOKT-ların qeyri-rəsmi sahiblərinin, yaxud himayədarlarının ayrı-ayrı məmurlar olduğuna dair fikirlər dolaşır. Əlbəttə, bu, bank olmayan kredit təşkilatlarının heç də hamısına şamil edilmir. Lakin bəzi vəzifəli şəxslərin ailə biznesinə BOKT-ların da daxil olduğu yönündə iddialar var.

Xatırladaq ki, bank olmayan kredit təşkilatı - (BOKT) xüsusi razılıq (lisenziya) əsasında kreditlərin verilməsi və Bank olmayan kredit təşkilatları haqqında Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan fəaliyyət növlərini həyata keçirən ixtisaslaşmış kredit təşkilatıdır.

BOKT-nin fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, bu Qanun, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər qanunları və normativ hüquqi aktları, Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra -Mərkəzi Bank) normativ xarakterli aktları ilə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir. Bu Qanun kredit ittifaqlarına və lombardlara şamil olunmur.

Kreditlərin verilməsi üçün BOKT Mərkəzi Bankdan xüsusi razılıq (lisenziya) almalıdır.

Onu da deyək ki, ötən il Azərbaycan Mərkəzi Bankı tərəfindən bank olmayan kredit təşkilatlarının (BOKT) fəaliyyətini tənzimləyən yeni qaydalar qəbul edilib. Əsasən qısamüddətli və kiçik məbləğli gündəlik istehlak kreditlərinə şamil olunan bu qaydalarda ilk dəfə "gündəlik" kreditlər üzrə anlayış, məbləğ, müddət və gündəlik faiz dərəcəsi üzrə maksimal hədlər, habelə bu cür kreditlər üzrə daha sərt prudensial normativlər müəyyən edilib.

Yeni qaydalara əsasən, gündəlik kredit məhsullarının parametrləri də dəyişib. Belə ki, artıq kredit məbləği 500 AZN-dək olmalıdır. Bu zaman gündəlik faiz 0.3%-dən çox olmayaraq, maksimum 45 gün üçün nəzərdə tutulur. Gecikmə faizi (maksimum 30 günə qədər) isə gündəlik 0.6%-dir.

Komissiya haqlarında məhdudiyyət olmasa da, ümumi gəlir məbləğin 100%-ni keçə bilməz. Kreditin uzadılması mümkün deyil, bağlandıqdan 3 iş günü sonra yenidən müraciət etmək mümkündür.

Bu yaxınlarda "Qafqazinfo" yazıb ki, hazırda BOKT bazarında ən iri iki payçı "Azpulmat" ticarət markası adı altında "Azpul" MMC və "SF Azerbaijan BOKT" MMC ticarət markası adı altında "Manato"dur.

Lisenziyanı ilk alaraq bazara daxil olan təşkilat "Azpul"dur. MMC Mərkəzi Bank tərəfindən verilmiş 18 sentyabr 2020-ci il tarixli BKT-34 lisenziyası əsasında fəaliyyət göstərir. Manato.az isə 24.12.2021 tarixli, BKT-44 saylı lisenziya əsasında fəaliyyətə başlayıb.

***Toğrul Əliyev***

21_27 IYUl-QARA.qxd 6/5/2025 9:55 PM Page 12



**5.3.15. dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Tolerantlığın Azərbaycan modeli dünyaya örnəkdir!

Fazil Mustafa: "Dövlətin ölkədə mövcud dini konfessiyaların fəaliyyətini dəstəkləməsi, onlara maliyyə yardımı ayırması Azərbaycan dövlətinin dini konfessiyalara fərq qoymadığını, əsl multikultral dövlət olduğunu göstərir"

***Dünyada diskriminasiya, milli irqi və dini ayrıseçkilik geniş vüsət alsa da, Azərbaycan öz multikultral dəyərlərini qoruyaraq yaşatmaqda davam edir. Tarix boyu ölkəmizdə yaşayan azsaylı xalqlara, onların dini dəyərlərinə, adət-ənənələrinə hörmətlə yanaşılıb. Digər dövlətlərdən fərqli olaraq ölkəmizdə yaşayan başqa dini mənsubiyyətə məxsus insanlara qarşı dözümsüzlük halları qeydə alınmayıb.***



Azərbaycanın azsaylı etnik xalqlarının yaşadığı bütün bölgələrdə sülh,əmin-amanlıq və birgəyaşayışın nümunəvi modelinə rast gəlinir. Etnik qruplara məxsus olan tarixi, dini, eləcə də, mədəni abidələrə hörmətlə, qayğı və diqqətlə yanaşılır. Azərbaycanda İslam mədəniyyətinə məxsus olan abidələrlə yanaşı, digər dinlərə məxsus abidələr də dövlətin diqqət və qayğısı ilə əhatə olunub və qorunmaqdadır. Ölkəmizdəki dini konfessiyaların fəaliyyəti də dövlət qayğısı ilə əhatə olunub. Dini Qurumlarla İş üzrə Dövlət Komissiyasından "Unikal"a verilən məlumata görə, hər il olduğu kimi, bu il də Azərbaycan dövləti ölkəmizdəki dini konfessiyaların fəaliyyətinə maliyyə ayırıb. Belə ki,

Prezident İlham Əliyev dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamla maliyyə yardımı ölkədə mövcud dini konfessiyaların fəaliyyətini dəstəkləmək, habelə dinlərarası həmrəyliyin daha da inkişaf etdirilməsi, dini maarifləndirmə işinin müasir tələblərə uyğun şəkildə qurulması və mütərəqqi mənəvi-əxlaqi dəyərlərin təbliği sahəsində fəaliyyətin gücləndirilməsi məqsədilə ayrılıb.

Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün 2025-ci il dövlət büdcəsində nəzərdə tutulan Prezidentin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 3 milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350 min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350 min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 350 min manat, Sefarad yəhudilərinin Bakı dini icmasına 350 min manat, Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 350 min manat və Alban-Udi xristian dini icmasına 350 min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fonduna 350 min manat ayrılıb.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa "Unikal" qəzetinə açıqlamasında bildirib ki, bu əslində Azərbaycan dövlətinin dini konfessiyalara fərq qoymadığını, əsl multikultral dövlət olduğunu göstərir. Deputat bildirib ki, başqa ölkələrdə belə nümunələrə çox az hallarda rast gəlinir. Onun sözlərinə görə, bu, ölkəmizin tolerant dəyərlərə önəm verdiyini göstərir.

"Ölkəmizdə yaşayan Azərbaycan vətəndaşları konstitusiyamıza, qanunlarımıza, dəyərlərə bağlıdırsa hansı dinə mənsub olursa olsun, onlara sayğı göstərilir. Bu həm də onların təmsil etdiyi dinlərin və konfensiyaların beynəlxalq səviyyədə Azərbaycanla olan müsbət münasibətlərindən xəbər verir. Bu ölkəmizin imicinə də müsbət təsir göstərir. Onlara torpaq sahələrinin ayrılması, kilsə və sinaqoqların inşası, təmirinə dövlət əlindən gələn köməyi edir. Bu, Azərbaycan dövlətinin mahiyyətinə uyğun bir davranışdır. Bu davranış bütün platformalarda alqışlanır. Ölkəmiz tolerantlıq modelinə, ənənəsinə görə digər dövlətlərə örnək göstərilir" deyə Komitə sədri bildirib.

Qeyd edək ki, dini və milli tolerantlığı özündə əks etdirən siyasi kursu ölkə rəhbərimiz, cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda İslam mədəniyyətinə məxsus olan abidələr, eləcə də maddi-mədəniyyət nümunələri ilə yanaşı, digər dinlərə məxsus abidələr də dövlətin diqqət və qayğısı ilə əhatə olunub və qorunmaqdadır. Bütün dinlərə məxsus insanlara və milli etnik fərqliliyi olan xalqlara öz bayramlarını, hətta dini rituallarını belə keçirmək üçün şərait yaradılıb və bu baxımdan da cəsarətlə deyə bilərik ki, dini və milli tolerantlıq, millətlərarası münasibətləri inkişaf etməkdə olan Azərbaycan bütün dünya ölkələri üçün tolerantlıq nümunəsi sayılır.Hazırda ölkəmizdə 16 kilsə və 7 sinaqoq fəaliyyət göstərir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatından bu müddət ərzində keçən dini qurumların sayı minə yaxındır. Xüsusilə nəzərə çatdıraq ki, Azərbaycanda dini dözümlülük ənənələrinin daha da möhkəmləndirilməsi, milli və dini azlıqlara dövlət qayğısının artırılması məqsədi ilə ölkəmizdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb və fəaliyyət göstərir. Həmin mərkəz məhz Azərbaycan həqiqətlərinin, eləcə də multikultural dəyərlərinin dünyada təbliği istiqamətində əvəzsiz xidmətlər göstərir və müstəsna rol oynayır. Azərbaycan dövləti dünyada sülh və əmin-amanlığı qorumaq, multikulturalizmi daha da inkişaf etdirmək istiqamətində olduqca əhəmiyyətli işlər görməkdədir. Başqa millətlərin, xalqların, etnik qrupların nümayəndələrinin mədəniyyətinə, adət-ənənələrinə, müxtəlif dini mənsubiyyətli insanların inanclarına hörmətlə yanaşmaq, dinc yanaşı yaşamaq xalqımızın milli mentalitetinin əsas xüsusiyyətlərindəndir. Bu gün Azərbaycan dünyaya birgəyaşayışın nümunəvi modelini sərgiləməkdədir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




## Müşfiqsiz 117 il: Bağırov şairi belə güllələyib

***Günlərdən 5 iyundur. Tarix xatırladır ki, bu gün repressiya qurbanı olan böyük şairimiz Mikayıl Müşfiqin doğum günüdür.***

"Unikal" xəbər verir ki, görkəmli şair Mikayıl Müşfiqin anadan olmasından 117 il ötür.

Mikayıl Müşfiqin atası Mirzə Əbdülqədir 1902-ci ildə Xızıdan Bakıya köçüb. 1908-ci ildə isə oğlu Mikayıl Bakının Dağlı məhəlləsində dünyaya gəlib. Müşfiq hələ altı aylıq ikən anası Züleyxanı, altı yaşında isə atasını itirib. Anasının vəfatından sonra atası onu Xızıdakı qohumu olan Səfiyyə xanıma verib.

Mirzə Əbdülqədir altı aylıq Mikayılı bibisi qızı Səfiyyə xanıma verəndə, onun da Gülhəsən adlı körpəsi var imiş. Müşfiqlə süd qardaşı olan Gülhəsən onunla qohumluğuna görə repressiyadan qaçmağa çalışıb. Buna görə də yaxınlarına Türkmənistana getdiyini deyib. Əslində isə Zərdab rayonunda məskunlaşıb.

Azərbaycan ədəbiyyatının ən parlaq simalarından biri olan Mikayıl Müşfiq həm yaradıcılığı, həm də faciəvi taleyi ilə yaddaşlarda silinməz iz buraxıb. Onun həyat yolu Sovet repressiyalarının qurbanı kimi bir çox sənətkarın yaşadığı acı taleyi əks etdirir.

1930-cu illərin sonlarına doğru Sovet rejiminin sərt repressiya dalğası Müşfiqi də əhatə edir. O, "xalq düşməni" kimi ittiham olunaraq 1937-ci ildə, ad günündən bir gün əvvəl həbs edilir. 1109 nömrəli məhbusun 1938-ci il yanvarın 5-də 20 dəqiqəlik dırnaqarası məhkəməsi keçirilir. Məhkəmə isə onu edam cəzasına məhkum edir. Müşfiq bu qərardan bir gün sonra, yanvar ayının 6-da güllələnir. Şair 1956-cı ildə SSRİ Ali Hərbi Məhkəməsinin qərarı ilə bəraət alır.

Mikayıl Müşfiq repressiya dövrünün qurbanı olsa da, onun poeziyası və sənətə verdiyi töhfələr Azərbaycan ədəbiyyatının zəngin xəzinəsində əbədi olaraq yaşayacaq.

***Ağarza Elçinoğlu***

21_27 IYUI-QARA.qxd 6/5/2025 9:55 PM Page 13





## Nazir onu baş həkim təyin etdi

***Babək Rayon Mərkəzi Xəstəxanasının baş həkimi vəzifəsinə təyinat olub.***

"Unikal" xəbər verir ki, bununla bağlı Naxçıvan Muxtar Respublikası səhiyyə naziri Samiq Sadıxov müvafiq əmr imzalayıb. Əmrə əsasən, Sultan Mirzəliyev Babək Rayon Mərkəzi Xəstəxanasının baş həkimi vəzifəsinə təyin edilib.

## "Sea Breeze"də usta faciəli şəkildə öldü

***"Sea Breeze"də tikinti aparılan ərazidə usta həyatını itirib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, tikintidə işləyən usta 1990-cı il təvəllüdlü Tural Quliyev 7-ci mərtəbədən yıxılıb. O, hadisə yerində dünyasını dəyişib. Məlumatı mərhumun qardaşı saytımıza təsdiq edib.

*Murad İbrahimli*

## Qusar rayonunda yazlıq bitkilərin əkini haqqında

***Qusar rayonun kənd əməkçiləri yazlıq əkinlərini demək olar ki, başa çatdırmışlar.***

01 iyun 2025-ci il vəziyyətinə rayonun təsərrüfatlarında 4371 hektar sahədə yazlıq bitkilər əkilmişdir, bu göstərici keçən ilin müvafiq dövründə 4674,1 hektar olmuşdur. Kənd təsərrüfatı sahəsində çalışan rayonun kənd əməkçilərinin ixracyönümlü, xarici bazarlarda Azərbaycan məhsulu adı altında satılan keyfiyyətli Respublikaya daha çox valyuta gətirən sahələrə marağı artmış, yeni sort məhsulların yetişdirilməsi əkinçilərin maraq dairəsindədir. Hazırda rayonda yazlıq bitkilərin 5 hektarını vələmir, 194 hektarını dənli paxlalılar, ondan 190 hektar lobya, 4 hektar noxud, 287,5 hektarın qarğıdalı, (77,5 hektarı dən üçün) 91,5 hektarın coxillik bitkilər, 2039 hektarını kartof, 1754 hektarını tərəvəz bitkiləri təşkil edir. Əkilmiş tərəvəz bitkiləri arasında daha çox kələm, xiyar, pomidor, baş soğan və sarımsaq sahələri üstünlük təşkil edir.

Bu il havaların soyuq və yağıntılı keçməsi əkinlərin gecikməsinə və məhsul yığımını gecikdirmişdir. Kənd əməkçiləri əkini yekunlaşdıraraq məhsul yığımı kompaniyasına hazırlaşırlar. Artıq rayonda bəzi tezyetişən meyvə və tərəvəzin yığımına start verilmişdir.

Rayonun təsərrüfatlarında bol məhsul gözlənilir.

*Qusar Rayon Statistika İdarəsi*

## Qaydalara əməl etməyən 13 min 615 piyada cərimələndi

***Ötən il paytaxt ərazisində qaydalara əməl etməyən 13 min 615 piyada barəsində inzibati xəta haqqında protokol tərtib edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Nəqliyyatı İntelektual İdarəetmə Mərkəzindən məlumat verilib.

O bildirib ki, bu ilin 5 ayı ərzində isə 8 min 713 piyada məsuliyyətə cəlb olunub.


**ELAN**

"Sahibkarlıq və Hüquq"qəzetinin bir ədəd dairəvi möhürü naməlum şəraitdə itmişdir və etibarsız sayılır.


# Kolleclərin qabiliyyət tələb edən ixtisaslarına qeydiyyat başladı

***2025/2026-cı tədris ili üçün ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları (XQTİ) üzrə qabiliyyət imtahanlarında iştirak etmək istəyən abituriyentlərin elektron qeydiyyatı başlayıb.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib.

Bildiirlib ki, abituriyentlər müvafiq keçidə daxil olub qeydiyyatdan keçə bilərlər.

Teatr, kino və xoreoqrafiya sənəti, idman, musiqi sənəti və təsviri sənət istiqamətlərinin komissiyaları üzrə aparılan qeydiyyat prosesi iyunun 5-dən 13-dək davam edəcək.

Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin XQTİ-ləri üzrə qabiliyyət imtahanlarında iştirak etmək istəyən abituriyentlər 1 istiqamətə aid ən çox 6 komissiya üzrə qeydiyyatdan keçə bilərlər.

Qeyd edək ki, ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili



müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə qeydiyyatdan qəbul imtahanının I mərhələsində (cari ilin məzunları üçün buraxılış) topladıqları ümumi balı 50 (fənlər üzrə nisbi bal məhdudiyyəti tətbiq edilmir) və daha yüksək olan abituriyentlər keçə bilərlər. Xoreoqrafiya sənəti və Rəqs müəllimliyi ixtisaslarına qəbul olmaq istəyən abituriyentlərin topladıqları bal 30 (fənlər üzrə nisbi bal məhdudiyyəti tətbiq edilmir) və ya daha yuxarı olduqda qeydiyyatdan keçməyə icazə verilir.

Qabiliyyət imtahanlarının iyun-avqust aylarında keçirilməsi nəzərdə tutulur.

Abituriyentlərə "Qabiliyyət imtahanına buraxılış vərəqəsi"ni çap edə biləcəkləri tarixlər haqqında məlumat DİM-in internet səhifəsində veriləcək. "Qabiliyyət imtahanına buraxılış vərəqəsi"ndə qabiliyyət imtahanlarının tarixi, keçiriləcəyi ünvan və vaxt göstəriləcək.

Xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə məlumatlar 2025-ci ildə nəşr edilən xüsusi qabiliyyət imtahanlarının istiqamətləri üzrə "Abituriyent" jurnalının xüsusi buraxılışlarında dərc edilib. Burada ali təhsilin bakalavriat və magistratura, tam (11 illik) və ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə məlumatlar, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər və digər faydalı məlumatlar əksini tapıb.

# Müflis hüquqi şəxslərin təmsilçiləri üçün müqavilə və order verilməsi elektronlaşıb

***Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın "Biznesin müflisləşməsi" İşçi qrupunun fəaliyyəti çərçivəsində müflisləşmə prosesində olan hüquqi şəxsləri təmsil edən nümayəndələr (vəkillər) üçün müqavilə və orderlərin elektron tərtib olunması mümkün olub.***

"Unikal" bu barədə Ədliyyə Nazirliyinə istinadən xəbər verir.

Məlumata əsasən, "Elektron vəkil" sistemi çərçivəsində müflisləşmə prosesindən əvvəl və müflisləşmə prosesində olan hüquqi şəxsləri təmsil edən nümayəndələr (vəkillər) üçün müqavilə və orderlərin elektron formada tərtib olunması zamanı tələb olunan məlumatların FİN (Fərdi İdentifikasiya Nömrəsi) və VÖEN (Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi) əsasında birbaşa sistem üzərindən elektron qaydada əldə olunması imkanı təmin edilib.

Bu funksionallıq vəkillərin sənədləşmə prosesini sürətləndirməklə yanaşı, məlumatların düzgünlüyünün və operativliyinin artırılmasına da xidmət edir.

Daha ətraflı linkə keçid edərək



tanış olmaq olar.

"Biznesin müflisləşməsi" İşçi qrupuna Ədliyyə Nazirliyi rəhbərlik edir.

# İcra Hakimiyyətinin şöbə müdirinə elektron qolbaq taxıldı

***Şəki Apellyasiya Məhkəməsində dələduzluqda təqsirləndirilən Qoşqar Babayevin (adı, soyadı şərtidir) barəsindəki hökmdən dövlət ittihamçısı tərəfindən verilən apellyasiya protesti üzrə məhkəmə iclası yekunlaşıb.***

"Unikal" pravda.az-a istinadən xəbər verir ki, hakim Elçin Hüseynovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub.

Qərara əsasən, apellyasiya protesti qismən təmin edilib, iş üzrə Balakən Rayon Məhkəməsinin qərarı ləğv edilib, yeni ittihamedici hökm çıxarılıb. Təqsirləndirilən şəxs 1 il müddətinə azadlığın məhdudlaşdırılması (elektron qolbaq) cəzasına məhkum olunub.



İttihama görə, Qoşqar Babayev digər təqsirləndirilən şəxslə birgə 2021 və 2022-ci illərdə Balakən və Qəbələ rayon sakinlərini Fövqəlade Hallar Nazirliyinə işə düzəltmək vədləri verib. Onlar bu yolla həmin şəxslərdən ümumilikdə 28 min manat pul alaraq dələduzluq ediblər.

Balakən Rayon Məhkəməsinin hökmü ilə Qoşqar Babayev cinayət məsuliyyətindən azad edilib və onun həmin maddələrlə təqsirləndirilməsinə dair hissədə cinayət işi üzrə icraata xitam verilib. Digər təqsirləndirilən şəxs isə 3 il müddətə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilib. Həmin qərarından narazı qalan dövlət ittihamçısı apellyasiya protesti verməşdi.

Qeyd edək ki, Qoşqar Babayev Yasamal Rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə iş şöbəsinin müdiri vəzifəsində işləyir.

21_27 IYUl-QARA.qxd 6/5/2025 9:55 PM Page 14



# Saatlıq əməkhaqqı sistemi vətəndaşlara nə qazandıracaq?

***Saatlıq əməkhaqqı sisteminin tətbiqi, eyni dəyərli əməyə görə bərabər maaşın ödənilməsi sistemlərinə keçid üçün Əmək Məcəlləsinə ediləcək dəyişiklik hökumətdə razılaşdırılmaq məqsədi ilə Nazirlər Kabinetinə təqdim olunub.***



"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, yeni mexanizmin tətbiq olunması, əməkhaqqının aylıq deyil, saatlıq olaraq hesablanmasına gətirib çıxaracaq:

"Saatlıq əməkhaqqının hesablanması bir tərəfdən vətəndaşlarımıza işlədikləri müddətin saatlar üzrə hesablanması və onların əməkhaqlarında artımların reallaşmasına gətirib çıxara bilər. Eyni zamanda vətəndaşımız saatlar üzrə differensial olaraq bir deyil, bir neçə iş yerində çalışa bilər. Bu da onun əməkhaqqının artmasına gətirib çıxaran faktorlardan olacaq. Beynəlxalq təcrübəni nəzərə alsaq, bu qeyri-iş günlərində və iş saatlarından sonra çalışan vətəndaşlarımızın əməkhaqlarında xüsusi əmsalların tətbiq edilməsinə və daha çox əməkhaqqı almasına səbəb ola bilər. Bu, yeni və inkişaf etmiş ölkələrdə tətbiq edilən mexanizmdir və bunun özəlliyi ondan ibarətdir ki, vətəndaşlarımızın əməkhaqlarının və əməyinin daha yüksək qiymətləndirilməsi real olaraq həyata keçirilsin. Bu baxımdan yeni mexanizmin tətbiq edilməsi əməkhaqlarının artırılmasına gətirib çıxara bilər.

Təbii ki, bu zaman meyarlar müəyyənləşəcək. Eləcə də saatlıq əməkhaqqı üçün də minimumlar məlum olacaq. Saat üçün minimum ödənişlər həm də aylıq əməkhaqqı üçün minimum ödənişlərin məbləğinə uyğunlaşdırılmalıdır və daha yüksək olmalıdır. Artıq yeni mexanizmin hazırlanması prosesi gedir. Son mərhələ razılaşdırmalardan sonra bunun nə zaman tətbiq ediləcəyi bəlli olacaq. Bütün hallarda bu mexanizmin tətbiq olunması əməkhaqqı sistemində bir yenilikdir".

# Ürəyi Vətənlə döyünən Mirlətif

***İkinci Qarabağ müharibəsi Mirlətif Mirislam oğlu Ağayev kimi qeyrətli igidlərin qanı bahasına zəfərimizlə bitdi. Cəlilabad rayonunun Göytəpə şəhərində boya-başa çatan Mirlətif ömrünü canından artıq sevdiyi Vətəni üçün yaşadı, 30 yaşında əbədiyyətə qovuşdu. Ağır müharibə meydanında qəhrəmanlığı ilə tarix yazan Cəlilabad elinin igid oğlu cismən aramızdan getsə də, iftixar mənbəyimizə, qürur yerimizə döndü. İndi o, Günəş ömrü yaşamaqla daha əzəmətli görünür. İnsanın həyatda ləyaqətlə, şərəflə yaşaması üçün bütün dəyərləri bu əzəmətdən görüb-götürmək olur.***

Qəlb dünyası sevdalı olan Mirlətif Ağayev 2008-ci ildə orta məktəbi bitirib. Həyat amali insanlara daha çox fayda vermək, qəlb sevindirmək olan yeniyetmə elə həmin il Tibb Universitetinə daxil olub, 2013-cü ildə ali təhsilini mükəmməl şəkildə başa vurub. Vətən məhəbbəti Mirlətifi ordu sıralarına aparıb. Cəbhə bölgəsində zabit kimi doğma Azərbaycana ləyaqətlə xidmət edib. Öz şəxsi nümunəsi ilə əsgərlərin qəlbində də Vətənə məhəbbət, cəsurluq, Qarabağımızı işğal etmiş yağıya nifrət hisslərini aşılayıb. Vətən əsqli zabit 2015-ci ildə ehtiyata buraxılıb.

Doğma elində Mirlətif əynində ağ xalatı görəndə qürur hissi keçirdib. Xəstələrinə həssas, qayğıkeş münasibət bəsləyib. Onlara ikinci həyat bəxş edəndə dünyalar qədər sevinib. Gözəl həkim, ləyaqətli, vicdanlı, təmiz oğul olaraq el-obada hamının hörmətini qazanıb. Bütün bunlara baxmayaraq Mir lətf həmişə düşmən tapdağında qalan Qarabağımızın taleyini düşünüb və Vətən çağıracağı, işğal olunmuş ərazilərin hərbi yolla azad olunacağı təqdirdə hər an ön sıralarda yer almağa, düşmənə qarşı son nəfəsinə qədər döyüşməyə hazır durub.

İkinci Qarabağ müharibəsi başlanan günü Azərbaycan Ordusunun leytenantı Mirlətif Ağayev Vətəni hər şeydən üstün bilməklə savaş meydanına girib. Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yağıya ağır zərbələr vurmaqla yanaşı, yaralanan hərbçilərə yerindəcə yardım edib, onlara ikinci həyat verib. 247 yaralı əsgəri, 20 şəhidi döyüş meydanından çıxarıb. Özü isə oktyabrın 26-da Qu-



badlı döyüşləri zamanı qəhrəmancasına şəhid olub. Noyabr ayının 7-də ata yurdu olan Ləkin kəndində torpağa tapşırılıb. Müharibə meydanında göstərdiyi şəxsi şücaəti ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda", Cəbrayılın və Qubadlının azadlığına görə medallarına layiq görülüb.

Bəli, deyirlər ki, hər bir insanın tarixi dəyəri onun öz Vətəni, xalqı üçün gördükləri ilə ölçülür. Mirlətif dünyadan tez getsə də, göstərdiyi qəhrəmanlıqla Azərbaycanın yeni, şərəfli tarixinə daxil oldu.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# 2025-ci ilin I rübündə Yevlax şəhərində sənayenin inkişafı haqqında

***Yevlax rayonunun sənayesi emalı, elektrik enerjisi qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələri ilə təşkil olunmuşdur.***

Rayon ərazisində 56 sənaye müəssisə qeydiyyatdan keçmiş, 2025-ci ilin yanvar-mart aylarında yalnız 17 müəssisə fəaliyyət göstərmişdir.

2025-ci ilin yanvar-mart aylarında sənaye müəssisələrində malların istehsalı və sənaye xarakterli xidmətlərin həcmi 12734,2 min manat olmuşdur. Sənaye istehsalı indeksi (sabit qiymətlərlə) 39,3 faiz təşkil etmişdir. İstehsal olunmuş və göstərilmiş xidmətlərdən 8531,7 min manatı hüquqi şəxslərin, 2184,6 min manatı qeydiyyatdan keçmiş fiziki şəxslərin, 2017,9 min manatı isə ev təsərrüfatlarında sənaye fəaliyyəti ilə məşğul olan təsərrüfatların hesabına olmuşdur.

2025-ci ilin yanvar-mart aylarında sənaye müəssisələrinin gördüyü işin həcminin 5253,5 min manatı və ya 41,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 164,4 min manatı və ya 1,3 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsinin, 7316,3 min manatı və ya 57,4 faizi emal sənayesinin payına düşür.

Əvvəlki ilin yanvar-mart ayları ilə müqayisədə emal sənayesi üzrə məhsul istehsalı 3,1 dəfə artmış, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsi üzrə 71 faiz, su təchizatı, tullantıların təmizlənməsi bölməsi üzrə isə 11,7 faiz az olmuşdur.

Hesabat dövrü ərzində emal sənayesinə mənsub olan qeyri-dövlət sektorunda istehsalın həcmi 7316,3 min manat olmuş və sənayenin ümumi məhsulunda onun xüsusi çəkisi 57,4 faiz təşkil etmişdir.

2025-ci il aprelin 1-i vəziyyətinə sənaye müəssisələrinin anbarlarında mal qalığı 3219,5 min manat, ötən ilin müvafiq dövründə isə 374,1 min manat olmuşdur.

***Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi Şamxal Mirzəyev***



# Komitə sədri diaspor təşkilatlarının rəhbərləri ilə görüşüb

***Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Azərbaycan Respublikasının Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğundakı fövqəladə və səlahiyyətli səfiri Vaqif Sadıqovla birgə Belçikadakı Azərbaycan diaspor təşkilatlarının rəhbərləri ilə görüşüb.***

"Unikal" xəbər verir ki, Azərbaycanın Belçikadakı Səfirliyində baş tutan görüşə "Fireland" Azərbaycanlılar Birliyinin rəhbəri İlahə Tağıyeva, BAF-Belçika Azərbaycanlıları Federasiyasının vitse-prezidenti Anar Malik, "MADANİ - Azərbaycanlıların Mədəniyyət, İdman, Düşüncə, Həmrəylik və Gələcək İmkanlar Məkanı" təşkilatının rəhbəri Emin Əliyev, "Radio Octo" Radio kanalının təsisçisi Rüfət Abbasov, "BUTAM" Azərbaycan Mədəniyyət Assosiasiyasının həmtəsisçisi Yasəmən Abbasi, İrs-Azərbaycan Belçika Tələbə Assosiasiyasının həmsədri Aysu Əhməd, komitə və səfirliyin əməkdaşları qatılıb.

Görüşdə xaricdə yaşayan soydaşlarımız arasında birlik və həmrəyliyin gücləndirilməsi, Azərbaycanın haqlı mövqeyinin beynəlxalq ictimaiyyətə daha geniş şəkildə çatdırılmasının əhəmiyyəti vurğulanıb. Görüləcək işlər, qarşıda duran hədəflər, həyata keçiriləcək layihələr və gələcəyə dair perspektiv planlar ətrafında geniş fikir mübadiləsi aparılıb, iştirakçıların sualları cavablandırılıb.

# Siyəzən rayonunda pensiyaçıların sayı barədə statistika

***2025-ci ilin əvvəlinə Siyəzən rayonunda pensiyaçıların sayı 3621 nəfər olmuşdur. Pensiyaçıların 2104 nəfəri yaşa görə, 760 nəfəri əlilliyə görə, 757 nəfəri isə ailə başçısının itiməyə görə pensiya alan şəxslərdir.***



Təyin olunmuş aylıq pensiyaların orta məbləği 417,45 manat təşkil etmişdir. Pensiyaçıların ümumi sayından 666 nəfəri işləyən, 2955 nəfəri işləməyənlərdir.

2025-ci ilin əvvəlinə əhaliyə dövlət tərəfindən verilən sosial müavinət təyin olunmuş şəxslərin sayı 1749 nəfər olmuşdur. 1 nəfərə düşən sosial müavinətin orta aylıq məbləği 185,74 manat olmuşdur.

2025-ci il yanvar ayının 1-i vəziyyətinə rayonda aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardımı alan ailələrin sayı 374 olmuşdur və 1 nəfərə düşən ünvanlı dövlət sosial yardımının orta aylıq məbləği 105,28 manat təşkil etmişdir.

***Siyəzən Rayon Statistika İdarəsinin rəisi Kamil Xəlilov***

21_27 IYUl-QARA.qxd 6/5/2025 9:55 PM Page 15



# "Köçəryan rüşvətxordur" - Paşinyan



***"Biz Robert Köçəryanın rüşvətxor olduğunu rəsmən qeyd etməmişik. Lakin bu, məhkəmə iclasında qeydə alınıb".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.

Baş nazir xatırladıb ki, Köçəryan ona qarşı rüşvətxorluq işinin müddətinin bitdiyini əsas gətirərək işə xitam verilməsinə razılaşıb: "Bu, Köçəryan rüşvətxor olduğunu etiraf edəndə baş verəcək. İndi Ermənistanın məhkəmə sistemi rəsmi olaraq Ermənistan Respublikasının ikinci prezidenti vəzifəsini tutan şəxsin rüşvətxor olduğunu qeyd edib".

***Ağarza Elçinoğlu***

# Rusiya Britaniya Şurasının fəaliyyətini arzuolunmaz elan edib



***Rusiya Baş Prokurorluğu "British Council" təşkilatının dövlət ərazisində fəaliyyətini arzuolunmaz elan edib.***

"Unikal" xəbər verir ki, bu barədə TASS məlumat yayıb.

"Maarifləndirici və mədəni fəaliyyət adı altında BC fəalları qeyri-ailə dəyərləri və ekstremist ideyaları təbliğ edirlər. Onlar daxili və xarici siyasətimizi gözdən salmağa yönəlmiş layihələr həyata keçirirlər", - TASS qeyd edib.

Bundan əvvəl bildirilmişdi ki, "Amnesty International Limited" beynəlxalq qeyri-hökumət təşkilatının da Rusiyada fəaliyyəti arzuolunmaz elan edilib.

***Gülayə Mecid***

# Putin tezliklə Tehrana gedəcək



***"Rusiya prezidenti Vladimir Putinin yaxın vaxtlarda Tehrana səfəri gözlənilir".***

"Unikal" xəbər verir ki, bunu İranın Moskvadakı səfiri Kazem Cəlali deyib.

"Hazırda iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə çatıb, yüksək səviyyəli rəsmilərin səfərləri həyata keçirilir və yaxın gələcəkdə biz Rusiya Prezidenti Vladimir Putinin Tehrana səfərini gözləyirik", - diplomat bildirib.

# Türkiyədə 5 bələdiyyə sədri vəzifəsindən azad edildi



***CHP bələdiyyələri ilə bağlı aparılan korrupsiya istintaqı çərçivəsində saxlanılan 38 nəfərdən 22-si həbs edilib. Həbs edilənlər arasında 5 CHP bələdiyyə sədri və keçmiş CHP millət vəkili Aykut Erdoğdu da var.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Daxili İşlər Nazirliyi məlumat yayıb.

Bildirilir ki, barələrində həbs qərarı çıxarılan Büyükçekmece bələdiyyə başçısı Həsən Akgül, Qaziosmanpaşa bələdiyyə başçısı Hakan Bahçetepe, Avcılar bələdiyyə başçısı Utku Caner Çaykara, Seyhan bələdiyyə başçısı Oya Tekin və Ceyhan bələdiyyə başçısı Kadir Aydarın vəzifələrindən azad edilib.

***Gülayə Mecid***

# Mirzoyandan sülh müqaviləsinin imzalanması ilə bağlı açıqlama



***Ermənistan sülh müqaviləsinin imzalanma tarixini və yerini hər an müəyyən etmək üçün məsləhətləşmələrə başlamağa hazır olduğunu bir daha təsdiq edir.***

"Unikal" xəbər verir ki, bunu Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan parlamentdə çıxışı zamanı bildirib.

O, qeyd edib ki, Azərbaycan da buna öz mövqeyini bildirir: "Müəyyən ilkin şərtlər var. Gündəlik kimi irəli sürülən mövzulardan biri də ATƏT-in Minsk qrupunun buraxılmasıdır ki, bu da bizim üçün məqbuldur. Doğrudan da, imzalanmış sənəd olanda münaqişəyə son qoyulacaq və məntiqlə bu münaqişə ilə bağlı hər hansı strukturun olmasına ehtiyac qalmayacaq".

Onun sözlərinə görə, ATƏT-in Minsk qrupunun buraxılması və sülh müqaviləsinin imzalanması prosesləri paralel aparılmalıdır və eyni vaxtda iki sənəd imzalana bilər.

***Ağarza Elçinoğlu***

# Ukrayna Rusiyanın strateji aviasiyasının 30%-ni sıradan çıxarıb



***"Hörümçək toru" kod adlı əməliyyat nəticəsində Ukrayna xüsusi xidmət orqanları Rusiya strateji aviasiyasının 40-dan çox bölməsini sıradan çıxarıb, onlardan 10-dan 13-ə qədəri tamamilə məhv edilib.***

"Unikal" xəbər verir ki, bu barədə NATO-nun yüksək rütbəli nümayəndəsi məlumat yayıb.

Bildirilir ki, zədələnmiş və məhv edilmiş təyyarələr arasında 15 Tu-95 strateji bombardmançı, 12 Tu-22M3, eləcə də ən azı bir A-50 hava desant erkən xəbərdarlıq təyyarəsi var (Rusiya ordusunda cəmi beş belə təyyarə var).

Məlumata görə, "Hörümçək toru" əməliyyatının hazırlanması il yarımdan çox davam edib. Birincisi, Ukrayna Təhlükəsizlik Xidməti gizli şəkildə kiçik kvadrokopterləri Rusiya ərazisinə daşıyıb. Daha sonra xüsusi taxta konteynerlər, həmçinin dronların yerləşdirildiyi qeyri-qanuni kanallar vasitəsilə çatdırılıb.

Hücumdan bir qədər əvvəl bu konteynerlər yük maşınlarına yüklənərək Rusiya aerodromlarına yaxınlaşdırılıb. Zərbə anı çatanda konteynerlərin qapaqları uzaqdan açılıb və pilotsuz təyyarələr hərbi obyektlərə hücum etmək üçün havaya qalxıb.

İyunun 1-də həyata keçirilən"Hörümçək toru" əməliyyatı tammiqyaslı müharibə başlayandan bəri Ukraynanın Rusiya Federasiyası ərazisində həyata keçirdiyi ən böyük hərbi əməliyyatlardan biri olub. Rusiyanın dörd bölgəsindəki - Murmansk, İrkutsk, Ryazan və İvanovo vilayətlərindəki aviabazalar vurulub.

***Gülayə Mecid***

# Onların ABŞ-yə girişi qadağandır! - Trampdan qərar



***ABŞ prezidenti Donald Tramp 12 ölkə vətəndaşlarının ABŞ-yə girişini qadağan edən fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, respublikaçı bu qərarı "Truth Social" sosial şəbəkəsində açıqlayıb.

Ümumi qadağa 12 ölkənin vətəndaşlarına şamil edilir: Əfqanıstan, Myanma, Çad, Konqo Respublikası, Ekvatorial Qvineya, Eritreya, Haiti, İran, Liviya, Somali, Sudan və Yəmən. ABŞ-nin qanuni daimi sakinləri və etibarlı viza sahibləri üçün istisnalar var. Ölkələrin siyahısı ABŞ Dövlət Departamentinin yanvar ayından bəri apardığı təhlilə əsaslanır.

Burundi, Kuba, Laos, Syerra-Leone, Toqo, Türkmənistan və Venesuela vətəndaşlarına qismən qadağa qoyulub. Onlara ziyarətçi və tələbə vizası verilməyəcək. Bununla belə, məsələn, Amerika qohumları ilə işləmək və ya yenidən birləşmək üçün vizalar qalacaq.

Donald Trampın sözlərinə görə, belə tədbirlərin tətbiq edilməsinə səbəb Kolorado ştatının Boulder şəhərində yəhudi fəallarına qarşı antisemit hücum olub.

***Gülayə Mecid***

# Paşinyan katolikosu avtoritet kimi təqdim etdi



***"Məncə, bütün ermənilərin katolikosu şəksiz nüfuz sahibi, ədalətin dönməz müdafiəçisi, şəksiz həqiqət mənbəyi olmalıdır".***

"Unikal" xəbər verir ki, bunu Ermnistanın baş naziri Nikol Paşinyan "Facebook" səhifəsində yazıb.

"Mən bütün ermənilərin katolikosunun həqiqəti boğan rolunda ola biləcəyinə inana bilmirəm, bütün ermənilərin katolikosunun ağzından həqiqətdən başqa bir şey çıxa biləcəyinə inana bilmirəm. Qoy II Karekin özü aydınlaşdırsın: o, subaylıq andını pozubmu və övladı varmı? Ondan həqiqəti eşitməyə haqqımız var", - baş nazir qeyd edib.

***Ağarza Elçinoğlu***

21_27 IYUI-QARA.qxd 6/5/2025 9:55 PM Page 16



# Millimiz yoldaşlıq görüşü üçün Latviyaya yollandı

***Azərbaycan millisi yoldaşlıq görüşü üçün Latviyaya yollanıb.***

"Unikal" xəbər verir ki, bu barədə AFFA-nın mətbuat xidməti məlumat yayıb.

Komanda oyunun keçiriləcəyi Riqa şəhərinə yola düşüb.



Komandamız sabah Bakı vaxtı ilə saat 19:30-da matçın baş tutacağı "Skonto" stadionunda son məşqinə çıxacaq.

Qeyd edək ki, iyunun 7-də keçiriləcək Latviya - Azərbaycan görüşü Bakı vaxtı ilə saat 17:00-da başlayacaq.

# PSJ-nin sabiq futbolçusu "Neftçi"də

***"Neftçi" heyətini yeni futbolçu ilə gücləndirib.***

Klubdan "Unikal"a verilən məlumata görə, Benin millisinin dayaq yarımmüdafiəçisi Sessi D Almeyda Bakı təmsilçisinə keçib. 29 yaşlı futbolçu ilə 2+1 illik müqavilə bağlanıb.

Fransanın Bordo şəhərində anadan olan Sessi D Almeyda eyniadlı klubun yetirməsidir. Fransa, İngiltərə, Portuqaliya liqalarında çıxış edib, son mövsümü Kiprin "Apollon" (Limassol) klubunda keçirib. 34 matçda meydana çıxıb, 1 qola imza atdığı Benin milli komandası ilə bu il dekabrın 21-dən 2026-cı il yanvarın 18-dək Mərakeşdə keçiriləcək Afrika Millətlər Kubokuna vəsiqə qazanıb.

Qeyd edək ki, Sessi D Almeyda 2015-ci ildə PSJ-yə transfer olunsa da, orada möhkəmlənə bilməyib.



# Rəsul Çunayev üçüncü dəfə məzun oldu

***Azərbaycan millisinin sabiq yunan-Roma güləşçisi, olimpiya mükafatçısı, dünya çempionu və I Avropa Oyunlarının qalibi olmuş Rəsul Çunayev üçüncü dəfə ali təhsil alıb.***

Sabiq güləşçi bu barədə şəxsi sosial şəbəkə hesabından paylaşım edib.



O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının bələdiyyə idarəetməsi üzrə ixtisasını uğurla başa vurub.

Qeyd edək ki, Rəsul Çunayev daha öncə Azərbaycan İdman Akademiyasını bitirib və Bakı Dövlət Universitetinin hüquq fakültəsindən məzun olub.

# Azərbaycan millisi məğlub oldu

***21 yaşadək futbolçulardan ibarət Azərbaycan millisi bu gün yoxlama oyunu keçirib.***

Belarusda təlim-məşq toplanışında olan Ayxan Abbasovun komandası bu ölkədən olan həmyaşıdları ilə üz-üzə gəlib.

Baranoviçi şəhər stadionunda oynanılan matç Belarusun 3:1 hesablı qələbəsi ilə yekunlaşıb. Yığmamızın yeganə qolunu 22-ci dəqiqədə Raul Məmmədov vurub.

Qeyd edək ki, U-21 iyunun 8-də isə Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda Monteneqro ilə yoldaşlıq görüşü keçirəcək.



# Amit Quluzadə: "AFFA İntizam Komitəsinin qərarının dəyişəcəyinə ümid edirdim"

***Azərbaycan I Liqasında çıxış edən "Qaradağ Lökbatan" klubunun baş məşqçisi Amit Quluzadə AFFA İntizam Komitəsinin onun haqqında çıxardığı beş oyunluq cəza qərarının dəyişəcəyinə ümid edib.***

Mütəxəssis bu barədə "Report"a açıqlama verib. O, XXVI turda "Karvan"la oyun bitdikdən sonra hakimləri təhqir etmədiyini və qərardan AFFA-ın Apellyasiya Arbitraj Tribunalına şikayət ünvanladığını xatırladıb:



"Çünki mənim heç bir günahım yox idi. Xahiş etmişdim ki, buna yenidən baxılsın. Qərarın dəyişəcəyinə ümid edirdim. Nə edə bilərəm? Çox ağır cəzadır. Orada yazılıb ki, mən hakimi təhqir etmişəm. Amma oyundan sonra referiləri görməmişəm. Görməmişəmsə, necə onlara söz deyə bilərəm? Hakimlər otağının yanında keçəndə də söyüş söyməmişəm. Nədənsə belə cəza verdilər".

A.Quluzadə gələcək karyerası ilə bağlı hələlik qərar vermədiyini söyləyib: "Ümumiyyətlə nələrin olacağını da bilmirəm".

Qeyd edək ki, A.Quluzadə "Karvan"la oyun bitdikdən sonra hakimləri təhqir etdiyi üçün beş oyunluq cəza alıb. Onun qərarla bağlı AFFA-nın Apellyasiya Arbitraj Tribunalına şikayəti təmin edilməyib.

# "Real" 37 yaşlı futbolçunu transfer edəcək

***"İnter"in futbolçusu Françesko Açerbinin "Real"a transfer olacağı gözlənilir.***

"Qafqazinfo" xəbər verir ki, bu barədə insayder Fabritsio Romano paylaşım edib.



Madrid təmsilçisi futbolçu və onun klubu ilə razılaşıb. Gələn həftə bu transferin rəsmiləşəcəyi bildirilib.

Qeyd edək ki, 37 yaşlı mərkəz müdafiəçisi 2023-cü ilin yayından "İnter"də çıxış edir. O, başa çatan mövsümdə Milan klubunda bütün turnirlərdə 33 oyuna çıxıb, 1 qol vurub və 3 qol ötürməsi edib.

# Messi Argentinaya qayıdacaq

***Argentinalı ulduz Lionel Messi "İnter Mayami"ni tərk edə bilər.***

Bu barədə jurnalist Flavio Azzaro məlumat yayıb. Onun sözlərinə görə, forvard Argentina çempionatından "Nyuells Old Boyz" klubuna keçməyə qərar verib.

Məlumata əsasən, transfer 2025-ci ilin dekabrında baş tutacaq.

Qeyd edək ki, Lionel Messi 2023-cü ilin yayından "İnter Mayami"də çıxış edir. Bu mövsüm futbolçu MLS-də 13 matçda 10 qol və 5 məhsuldar ötürmə ilə yadda qalıb.

# Futbolun İnkişaf Fondu son 3 illə bağlı maliyyə hesabatını açıqlayıb

FUTBOLUN İNKİŞAF FONDU

***AFFA tərəfindən təsis olunan Futbolun İnkişaf Fondu (FİF) son 3 illə bağlı maliyyə hesabatını açıqlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə FİF-in mətbuat xidməti məlumat yayıb. Hesabatda fondun 2022, 2023, 2024-cü illərdəki xərcləri və əldə etdiyi gəlirlər də göstərilib.

Qurumun 2022-ci ildəki gəlirləri 350 min 676 manat təşkil edib. 2023-cü ildə büdcəsinə 511 min 206 manat əlavə edən FİF, 2024-cü ildə 449 min 12 manat qazanıb.

2022-ci ildə büdcəsindən 379 min 249 manat xərcləyən fondun 2023-cü ildəki xərcləri 511 min 718 manat təşkil edib. Qurumun ötənilki xərcləri isə 471 min 809 manat olub.

Qeyd edək ki, FİF 2016-cı ildə AFFA tərəfindən təsis olunub.

# "Qarabağ" klubu Avstriyada təlim-məşq toplanışında olacaq

***"Qarabağ" klubu Avstriyada təlim-məşq toplanışında olacaq.***

Bu barədə Ağdam təmsilçisinin mətbuat katibi Anar Hacıyev məlumat verib. Onun sözlərinə görə, hazırlıq prosesi iki mərhələdən ibarət olacaq:

"İyunun 18-dək iyulun 2-dək Bakıda toplanış keçəcəyik. İyulun 16-dək isə yeni mövsümə Avstriyada hazırlaşacağıq. Yoxlama oyunlarındakı rəqiblər hələlik tam dəqiqləşməyib".

Qeyd edək ki, "Qarabağ"ın UEFA Çempionlar Liqasının II təsnifat mərhələsindəki rəqibi iyunun 18-də müəyyənləşəcək. Bu raundun ilk matçları 22-23 iyul, cavab qarşılaşmaları 29-30 iyulda gerçəkləşəcək.

# Ali Koç PSJ-dən iki futbolçu istədi

***"Fənərbaxça"nın prezidenti Ali Koç növbəti mövsümdə PSJ-dən futbolçu almağı planlaşdırır.***

Bu barədə Türkiyə mediası məlumat yayıb. Belə ki, A. Koç Fransa klubunun sahibi olan dostu Nasser Əl-Xelaifidən Randal Kolo Muano və Qonçalo Ramosu istəyib.

PSJ rəhbərinin İstanbul təmsilçisinə müsbət cavab verdiyi bildirilir.